HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 11 (905) ■ 28 mart 2018 www.vergiler.az Qiymәti: 60 qәp.

# Prezident İlham Əliyevin Bərdə rayonuna səfəri

## Az rbaycanda pamb q l n inki af ulu nd r Heyd r liyevin

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Bərdə rayonuna səfər edib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzindəki abidəsini ziyarət edib önünə gül dəstəsi qoyan dövlətimizin başçısına rayonda görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.**



Bərdə rayonunun Cəyirli kəndinin ərazisində fermer Musa Quliyevin 20 hektarlıq pambıq tarlası ilə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, ötən il bu fermer təsərrüfatı tərəfindən 15 hektar sahədə pambıq əkilib və 40,5 ton məhsul götürülüb. Məhsuldarlıq hər hektara 27 sentner təşkil edib. Bu il isə 20 hektarda pambıq əkilməsi nəzərdə tutulub. Qarşıya hər hektardan 35 sentner məhsul götürülməsi hədəf qoyulub.

Səfər çərçivəsində Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsində və Torpaqqala kompleksində yaradılan şəraitlə də tanış olub. Məlumat verilib ki, Bərdə türbəsi 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndəsi Əhməd ibn Əyyub əl-Hafiz tərəfindən tikilib. Türbə eramızdan əvvəl inşa olunan Torpaqqala adlı müdafiə divarlarının ərazisində yerləşir. Qülləvarı quruluşa malik türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissəni o dövrdə xarakterik olan dəfn üçün ayrılmış sərdabə təşkil edir. Yerüstü qat isə xatirə abidəsidir və monumental xarakter daşıyır. Türbə xarici fasad üzrə kürsüdən, gövdə və günbəzdən ibarətdir. Hündürlüyü 13 metr olan türbənin bayır tərəfdən diametri 10 metrdir. Kürsüdən başlayaraq yuxarıdakı haşiyəyə qədər hissəni örtən və firuzəyi kaşı ilə qırmızı kərpicin əlaqələndirilməsindən yaranan bir kompozisiyadan əmələ gələn kitabədə «Allah» sözü mütənasib surətdə təkrarlanır. Məhz bu səbəbdən abidəyə el arasında «Allah-Allah» türbəsi də deyilir. Abidənin kimin şərəfinə tikildiyi məlum deyil. Ehtimal olunur ki, Elxanilər sülaləsindən olan bir şəxs üçün inşa edilib. Türbənin betondan quraşdırılmış qəzalı günbəzi tam sökülərək yenidən hörülüb və kaşılı kərpiclə üzlənib. Burada 427 kvadratmetr sadə və mürəkkəb formalı kaşı elementləri hazırlanaraq tətbiq edilib. Quranın «Ayətül-Kürsü» ayəsi və kufi əlifbası ilə kitabələr bərpa olunub, kaşılararası hörgü tikişləri təmizlənərək xüsusi məhlul qarışığı ilə yenidən doldurulub, divarlardakı çatlar tam regenerasiya edilib. Sərdabənin pilləkəni şüşə örtüklə bağlanıb və burada mərmər sənduqə quraşdırılıb. Türbənin yerləşdiyi iki hektar ərazini əhatə edən Torpaqqala divarları da bərpa olunub. Bərpa işləri Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən həyata keçirilib.

Həmin gün dövlətimizin başçısı Bərdə rayonunda Yeni Daşkənd-Umudalılar avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. Bildirilib ki, yol 15 min əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 25 kilometr olan IV texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metrdir. İki hərəkət zolaqlı yol üzərində müxtəlif diametrli 45 suötürücü boru tikilib, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr quraşdırılıb. Yolun inşası bütün texniki tələblərə və ardıcıllığa uyğun olmaqla yüksək səviyyədə yerinə yetirilib.

Martın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Mədəniyyət Mərkəzinin foyesində ölkəmizdə pambıqçılığın inkişafı ilə əlaqədar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələrin yenidən dirçəldilməsinə həsr olunmuş fotostend nümayiş etdirilib.

Respublika müşavirəsində giriş nitqi söyləyən Prezident İlham Əliyev bildirib ki, 2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır: «Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. Demək olar ki, biz pambıqçılığı Azərbaycanda bərpa edirik. 2016-cı ildə Sabirabad şəhərində, keçən il isə martın sonunda Saatlı şəhərində müşavirələr keçirilmişdir. Bu müşavirələrdə verilən tapşırıqlar yerinə yetirilir. Biz bu tapşırıqların yerinə yetirilməsi nəticəsində gözəl nailiyyətlərə də çata bilmişik. Bu gün isə pambıqçılığa dair üçüncü müşavirə Bərdə şəhərində keçirilir. Bərdənin pambıqçılıqda çox böyük ənənələri vardır. 1970-1980-ci illərdə Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. Bərdəlilər yaxşı bilirlər ki, ulu öndər Heydər Əliyev bu sahəyə çox ciddi diqqət göstərirdi və dəfələrlə Bərdədə olmuşdur. Bərdədə pambıqçılıqla bağlı dəfələrlə zona müşavirələri keçirilmişdir. O illərdə Bərdədə pambığın tədarükü 120 min tona çatmışdır».

Dövlətimizin başçısı qeyd edib ki, kənd təsərrüfatının inkişafında pambıqçılıq xüsusi əhəmiyyət daşıyır: «Təsadüfi deyil ki, 1970-1980-ci illərdə Azərbaycanda məhz pambıqçılığa çox böyük diqqət göstərilirdi və o vaxt əkin sahələrinin 22 faizi pambıqçılığa ayrılmışdı. Əlbəttə ki, ondan sonrakı dövrdə biz daha çox ərzaq təhlükəsizliyi məsələləri ilə məşğul olmağa başladıq və pambıqçılığın əkin sahələri azaldı. Biz bu gün bu barədə danışacağıq. Ancaq son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha onu göstərir ki, bu sahənin çox böyük gələcəyi var. Zəhmətkeşlər, fermerlər üçün bunun çox böyük gəliri var. Ölkə iqtisadiyyatı üçün də böyük faydası var. Qeyd etdiyim kimi, 1970-ci illərdə Azərbaycanda pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdır və 1981-ci ildə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır. Heydər Əliyev Azərbaycandan gedəndən sonra hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü bir milyondan 500 min tona düşmüşdür. Müstəqillik dövründə isə pambıqçılıq demək olar ki, məhv olub gedirdi».

Prezident İlham Əliyev bildirib ki, son illər ərzində Azərbaycanda kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atılıb: «Bizim son illər ərzində əsas vəzifəmiz ərzaq təhlükəsizliyi məsələləri idi. Çünki sovet vaxtında Azərbaycanda pambıq, üzüm, meyvə-tərəvəz istehsal olunurdu, ancaq əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Ona görə biz, ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etmək üçün işləyirdik, çalışırdıq, investisiyalar qoyulurdu. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həllində çox ciddi uğurlara nail olmuşuq. Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq».

**Davamı 2-ci səhifədə**

# Ən müasir standartlara cavab verən müalicə ocağı

**Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.**



Hospitalın baş icraçı direktoru Faiq Əliyev və baş həkim Musa Abbasov dövlətimizin başçısına və birinci xanıma yeni tibb müəssisəsi barədə məlumat verərək bildiriblər ki, hospital tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən az sayda müalicə ocaqlarından biridir.

Dövlətimizin başçısı hospitalın rəmzi açılışını bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, bina stasionar və diaqnostik hissələrdən ibarətdir. Stasionar hissə yeddimərtəbəli, diaqnostik hissə isə dördmərtəbəlidir. Hospitalda ürək-damar cərrahiyyəsi, invaziv-kardiologiya, mama-ginekologiya, neonatologiya, pediatriya, təcili tibbi yardım, reanimasiya, süni mayalanma, ümumi cərrahiyyə, ortopediya-travmatologiya, neyrocərrahiyyə, qulaq, burun və boğaz xəstəlikləri, göz xəstəlikləri, urologiya, anesteziologiya, daxili xəstəliklər, qastroenterologiya, nevrologiya, şüa diaqnostikası, tibbi laboratoriyalar, onkologiya, stomatologiya, qan bankı, fizioterapiya-reabilitasiya, mərkəzi sterilizasiya kimi bütün əsas tibbi xidmət sahələri fəaliyyət göstərəcək. Hospital 206 çarpayılıqdır. Təcili tibbi yardım şöbəsi isə 12 yerlikdir.

Sonra dövlətimizin başçısı və birinci xanım burada çalışan xarici həkimlərlə görüşüb söhbət ediblər. Hospitalda ümumilikdə 850 nəfərdən ibarət tibbi heyətin işləyəcəyi nəzərdə tutulur. Onlardan 22 həkim və 30 orta tibb heyəti Avropadan dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislərdir. Bu mütəxəssislər dünyada öz sahələri üzrə məşhur olan tanınmış tibb işçiləridir. Burada çalışan tibb mütəxəssisləri arasında ABŞ, Kanada, Avstraliya, Almaniya, İtaliya, Fransa, Belçika, Niderland, Xorvatiya, Serbiya, Yunanıstan, İspaniyadan olan yüksək peşəkar həkimlər var.

Pediatriya və neonatologiya şöbəsində azyaşlıların müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ümumi pediatriya, genetik konsultasiya, pediatrik nevrologiya, kardiologiya və cərrahiyyə xidmətləri göstəriləcək. Şöbədə, eyni zamanda, qabaqcıl laparoskopik prosedurlar da icra olunacaq.

Diqqətə çatdırılıb ki, müəssisənin kliniki laboratoriya şöbəsi bütün xəstələri həftənin və sutkanın istənilən vaxtı hərtərəfli müayinələr və qan bankı xidmətləri ilə təmin edir. Burada müxtəlif laborator müayinələr aparmaq üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri yüksək keyfiyyət və dəqiqliklə, həmçinin qısa müddətdə icra etməyə imkan yaradır. Laboratoriyanın məlumat sistemi xəstəxananın məlumat sistemi ilə əlaqəlidir. Kliniki kimyəvi laboratoriyada tamamilə avtomatlaşdırılmış nəzarət sistemi mövcuddur.

Hospitalda yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivi ilə görüşüblər, onlara uğurlar arzulayıblar.

## Rəsmi xronika

- «Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 noyabr tarixli 579 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamının 1-ci hissəsi ilə yaradılmış Komissiyanın həmsədri Azərbaycan Respublikasının vergilər naziri təyin olunub.
- «Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi ilə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli 1174 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamının 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi müəyyənləşib. Azərbaycan Respublikasının vergilər naziri Komissiyanın həmsədri təyin edilib.
- «Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının 1-ci hissəsi ilə yaradılmış Komissiyanın həmsədri Azərbaycan Respublikasının vergilər naziri təyin olunub.
- «Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 mart tarixli 196 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamının 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibinə Azərbaycan Respublikası vergilər nazirinin müavini daxil edilib.

Yoxlamaların sayı azaldılacaq, keyfiyyəti isə artırılacaq — səh. 2

«Elektron hökumət»in rəqəmsallaşması xidmətlərin keyfiyyətcə yeni formada təqdimatıdır — səh. 3

Biznes sektorunun problemləri təhlil edilir — səh. 4

Gəl, baharım... — səh. 5

# Prezident İlham Əliyevin Bərdə rayonuna səfəri

## Az rbaycanda pamb q l n inki af ulu nd r Heyd r liyevin

**Əvvəli 1-ci səhifədə**

Dövlət xətti ilə böyük həcmdə müasir texnika alındığını, gübrə ilə təminatın yaxşılaşdığını, meliorasiya sahəsində böyük layihələr icra edildiyini və on minlərlə hektar torpaqda meliorativ tədbirlər görüldüyünü diqqətə çatdıran ölkə başçısının sözlərinə görə, pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılıb: «Prezident Administrasiyası, yerli icra orqanları, şirkətlər, fermerlər, zəhmətkeşlər artıq bir nöqtəyə vuraraq yaxşı nəticələrə imza atmışlar. İki il ərzində əldə edilmiş rəqəmlər bunun ən yaxşı göstəricisidir. Pambıqçılıq əmək tutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Mən əvvəlki çıxışlarımda da bunu qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna da nail ola bilmişik. Eyni zamanda, pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixracyönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. İndi pambıqtəmizləmə zavodları işləyir. Yəni, pambıqçılığın ölkə iqtisadiyyatı üçün böyük faydası var - ilk növbədə, məşğulluq, ölkəmizə valyuta gətirir, qeyri-neft sektorunu, qeyri-neft sənayesini inkişaf etdirir, yerli istehsala təkan verir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır. Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram dünyada ikinci ölkə tapılsın ki, iki il ərzində pambıq tədarükünü altı dəfədən çox artıra bilsin. 2016-cı ildə təqribən 90 min tona yaxın pambıq yığılmışdır, keçən il 207 min ton. Baxmayaraq ki, böyük həcmdə məhsul götürmüşük, ancaq hektardan məhsuldarlıq lazımi səviyyədə deyil. Bərdə rayonunda çox yaxşı səviyyədədir, 26 sentnerdən çoxdur. Lakin bəzi rayonlarda çox aşağıdır. Bunun səbəbləri təhlil edilir və edilməlidir ki, buraxılan nöqsanlara gələcəkdə yol verilməsin, məhsuldarlıq daha da yüksək olsun».

Sonra müşavirədə çıxış edən Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, «MKT İstehsalat Kommersiya» MMC-nin baş direktorunun müavini Rövşən Həsənov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Biləsuvar rayonunun Aşağı Cürəli kəndinin sakini, fermer Fazil Musayev, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, «Azərpambıq» MMC-nin baş direktor əvəzi Zakir Əzimov, Saatlı rayonunun Mircəlal kəndinin sakini, fermer Nizami Məmmədov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasətin uğurlarından bəhs ediblər. Qeyd olunub ki, ölkə başçısı tərəfindən son illərdə imzalanmış fərman və sərəncamlar, qəbul olunmuş Dövlət Proqramı, bu sahə üzrə müxtəlif dəstək və təşviq mexanizmlərinin tətbiqi pambıqçılığın inkişafı üçün əlverişli şərait yaradıb. Natiqlər əkin sahələrinin artırılması üçün meliorativ və suvarma işləri, texnika və gübrə təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər barədə dövlət başçısına məlumat veriblər.

Müşavirədə yekun nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, pambıqçılığın inkişafı ilə bağlı müəyyən edilmiş əsas vəzifə müsbət dinamikanı saxlamaq, əlavə addımlar atmaqdır: «Əgər hansısa təsərrüfatda hektardan 55, 50, 40, 35 sentner məhsul götürülürsə, demək, bu, mümkündür. Çalışmalıyıq ki, bütün rayonlarda məhsuldarlıq daha da artsın. Məhsuldarlıqla bağlı bəzi problemlər var və bunlar aradan qaldırılmalıdır. Bu barədə çıxışlarda da məlumat verildi. Elə etməliyik ki, bütün bu qüsurlar, çatışmazlıqlar ciddi təhlil olunsun və biz bunu edirik. Gələcəkdə bu səhvlərə yol verilməməlidir və bundan sonra Azərbaycanda pambıqçılığın inkişafı yalnız məhsuldarlığın artırılması hesabına təmin edilməlidir. Müsbət təcrübə öyrənilməli və geniş tətbiq edilməlidir. Mənfi təcrübə də ciddi təhlil edilməli və gələcəkdə səhvlərə yol verməmək üçün ciddi tədbirlər görülməlidir. Keçən il orta məhsuldarlıq 15,2 sentner olub. Əlbəttə ki, bu, bizi qane edə bilməz. Bu, çox aşağı göstəricidir. Baxmayaraq ki, qeyd etdiyim kimi, qısa müddətdə - 2 il ərzində biz pambıq tədarükünü 6 dəfə artıra bilmişik və bu gün 200 min tondan çox pambıq təhvil vermişik, məhsuldarlıq əlbəttə ki, bizi heç cür qane edə bilməz. Əgər biz orta məhsuldarlığı 20 sentner səviyyəsində təmin edə bilsəydik, biz keçən il 270 min ton pambıq götürə bilərdik».



**“Ölkə başçısı tərəfindən son illərdə imzalanmış fərman və sərəncamlar, qəbul olunmuş Dövlət Proqramı, bu sahə üzrə müxtəlif dəstək və təşviq mexanizmlərinin tətbiqi pambıqçılığın inkişafı üçün əlverişli şərait yaradıb**

Dövlətimizin başçısı emal müəssisələrinin gücünün artırılması üçün əlavə tədbirlər görüldüyünü, yeni pambıqtəmizləmə zavodlarının tikildiyini, fermerlərə keyfiyyətli gübrələr verilməsi və keyfiyyətinin yüksək səviyyədə təmin edilməsi, bu sahəyə ciddi nəzarət edilməli olunduğunun vacibliyini xatırladıb. Məhsuldarlığın artırılması üçün suvarmanın xüsusi rolu olduğunu, bu sahədə əlavə işlər görülməsi, pilot suvarma və müasir irriqasiya sistemlərinin tətbiqi barədə tapşırıqlar verib. Qeyd edib ki, pambıqçılığın inkişafı işsizliyin aradan qaldırılmasına böyük dəstəyi var: «Biz bunu keçən il görmüşük. Qeyd etdiyim kimi, 200 minə yaxın insan işlərə cəlb edilib. Bu il ən azı bu qədər insan işlərə cəlb edilməlidir və əlbəttə ki, zəhmətkeşlərin iş şəraiti lazımi səviyyədə təşkil olunmalıdır. Tarla düşərgələri, içməli su ilə, nəqliyyatla təminat lazımi səviyyədə olmalıdır. Həm tədarükçü şirkətlər, həm yerli icra orqanları bu sahəyə xüsusi diqqət göstərsinlər».

Sonra Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafında xidmətlərinə görə 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunmuş fermerlərə - Fatma Hüseynovaya, Tofiq İsmayılova və Fazil Musayevə ordenləri təqdim edib.

# Bəyannamələr vaxtında təqdim edilməlidir

## Ən asan yol bəyannamələrin vergi orqanlarına elektron qaydada göndərilməsidir

Vergi Məcəlləsinin 72.2-ci maddəsinə əsasən, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında) göndərilə bilər. Vergi ödəyiciləri tərəfindən vergi bəyannamələrinin elektron formada təqdim edilməsi üçün gücləndirilmiş elektron imzadan, o cümlədən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən verilmiş «ASAN imza»dan (mobil imza) və ya istifadəçi kodu, şifrə və paroldan istifadə etmək olar. Bununla da vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə kontakta girmədən, tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə və istədiyi zamanda bəyannaməni tərtib edərək internet vasitəsilə göndərmək imkanına malik olur. Eyni zamanda, gücləndirilmiş elektron imzası ( və ya «ASAN imza»sı (mobil imza)) olan vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti əsasında Mərkəzin təmsilçisi tərəfindən onun təqdim etdiyi məlumatlar əsasında 1-ci, 2-ci və 3-cü rüblər üzrə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin hazırlanması və elektron qaydada göndərilməsi imkanı da mövcuddur. Vergi ödəyiciləri arasında aparılan təbliğat işləri nəticəsində elektron formada təqdim edilən bəyannamələrin nisbəti ilbəil artır. 2017-ci ildə bəyannamələrin elektron təqdim edilməsi səviyyəsi təxminən 95 faizə çatıb. Bu ilin yanvar-fevral aylarında ƏDV, aksiz, mədən, yol vergilərinə, xüsusi notariusların gəlir vergisinə aid bəyannamələr vergi orqanlarına 100 faiz elektron formada təqdim edilib. Digər vergilər üzrə isə bu göstərici orta hesabla 97 faizdən çox olmuşdur.

Bəyannamələrin elektron formada təqdim edilməsi vergi ödəyiciləri üçün əlavə imkanlar yaradır. Vergi ödəyicisi bəyannaməni elektron formada göndərməklə öz şəxsi hesab vərəqəsinə baxmaq imkanı əldə edir və büdcəyə olan borcları barədə məlumatlarla tanış ola bilir. Bəyannamənin tərtibi və göndərilməsi ilə bağlı əlavə məlumat almaq lazım gəldikdə isə Vergilər Nazirliyinin rəsmi internet saytına və ya həmin saytda yerləşən info@e-taxes.gov.az elektron poçt ünvanına məktubla, habelə «195-1» Çağrı Mərkəzinə müraciət etmək mümkündür.

> Vergi ödəyiciləri arasında aparılan təbliğat işləri nəticəsində elektron formada təqdim edilən bəyannamələrin nisbəti ilbəil artır. 2017-ci ildə bəyannamələrin elektron təqdim edilməsi səviyyəsi təxminən 95 faizə çatıb. Bu ilin yanvar-fevral aylarında ƏDV, aksiz, mədən, yol vergilərinə, xüsusi notariusların gəlir vergisinə aid bəyannamələr vergi orqanlarına 100 faiz elektron formada təqdim edilib. Digər vergilər üzrə bu göstərici 93-99 faiz səviyyəsindədir.

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə qanunvericilikdə baş vermiş ən son yeniliklər barədə vergi ödəyicilərinə mütəmadi olaraq bildiriş və SMS-lər göndərilir, dəyişikliklərin mahiyyəti sahibkarlarla keçirilən görüşlərdə, eləcə də KİV-də ətraflı izah edilir.

Bütün bunlara baxmayaraq, öz öhdəliklərinə etinasız yanaşan, qanunvericiliyin tələbləri ilə hesablaşmayan vergi ödəyiciləri vergidən yayınma nöqteyi-nəzərindən riskli vergi ödəyiciləri hesab edilərək, onlarda Vergi Məcəlləsinin 50-ci maddəsinə əsasən vergi nəzarəti tədbirləri həyata keçirilir. Vergi qanunvericiliyi hesabatın vaxtında təqdim edilməməsinə və vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiq olunmasını nəzərdə tutur. Qanunvericiliyə əsasən, vergi hesabatının verilməməsi və ya fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi vergi orqanının qərarına uyğun olaraq, 40 manat məbləğində maliyyə sanksiya tətbiq olunur. Bundan başqa, verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği göstərilməli olan məbləğinə nisbətən azaldılıbsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim olunmamaqla yayındırılıbsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün (1 ildən çox olmamaq şərtilə) vergi ödəyicisindən və ya agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

**Rəşad SADIQOV**

# Yoxlamalar n say azald lac keyfiyy ti is art r lac

**Dövlət başçısının fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların 2021-ci il yanvarın 1-dək dayandırılması ölkədə biznes mühitinin sağlamlaşdırılmasına və daha da canlandırılmasına yönəldilib**

Bu dövr ərzində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamaların aparılmasına icazə verilir. Bu istisnanın səbəbi aydındır: dövlət iqtisadi təhlükəsizliyini və vətəndaşların sağlamlığını nəzarətsiz qoya bilməz. Amma bu sahədə müasir yanaşmaların tətbiqi, sahibkarla dövlət qurumu arasında münasibətin formasının keyfiyyətcə dəyişməsi, nəzarət işinin səmərəliliyinin təmin edilməsi də günümüzün iqtisadi tələblərindəndir.

Yoxlayıcı orqanlardan birinin - Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib ki, yoxlamalar qida təhlükəsizliyi sahəsində risklərin idarə olunması məqsədilə həyata keçiriləcək. Bu sahədə aparılacaq dövlət nəzarəti tədbirləri sahibkarlıq subyektlərinin fəaliyyətində maneçilik törətməyəcək, yoxlama və təftişlər sahibkarlıq subyektlərinə yardım və dəstək formatında həyata keçiriləcək. Təbii ki, dövlətin qida sənayesi ilə bağlı müəyyən etdiyi norma və standartların pozulması halları aşkar olunduqda həmin təsərrüfat subyekti barəsində qanuni tədbirlər görüləcək.

***Vergi yoxlamalarında yeni yanaşmalar tətbiq olunacaq***

Vergi potensialının düzgün müəyyən olunması, vergi nəzarətinin keyfiyyətinin və nəzarət tədbirlərinin səmərəliliyinin artırılması yolu ilə vergi yoxlamalarının aparılması da davam etdiriləcək. Hazırda vergi sistemində daha səmərəli vergi nəzarəti mexanizmlərinin tətbiqi ilə bağlı iş aparılır. Vergilər naziri Mikayıl Cabbarov fevralın 13-də keçirilmiş «Vergilər. Şəffaflıq. İnkişaf» adlı konfransda bildirib ki, vergi orqanları səmərəli vergi nəzarəti mexanizmlərinə malik olmalıdır. Bu siyasətə uyğun olaraq vergi yoxlamalarının sayı azaldılacaq, keyfiyyəti isə artırılacaq. Vergi yoxlamalarının sayının azaldılması nəzarət sisteminin zəifləməsi demək deyil. Yoxlamalar məsafədən, vergi risklərinin idarə edilməsi sistemi kimi innovativ alətlərin tətbiqi ilə həyata keçiriləcək.

Yeni baxış bucağının hədəfi vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlərə yanaşmanı dəyişmək, hər kateqoriya vergi ödəyicisinə ona uyğun yanaşma formalaşdırmaqdır. Daha səmərəli, çevik və şəffaf inzibatçılıq metodlarının tətbiqi nəzərdə tutulur. Bu yanaşma nəzarətin daha çox risk modulları üzərindən həyata keçirilməsini təmin edəcək. Nazirliyin məqsədi sanksiya tətbiq etmək deyil. Lakin qanunu pozan hər kəs öz əməlinə görə qanun qarşısında cavab verməlidir. Ona görə də vergi ödəyiciləri qanunvericiliyin tələblərinə daha ciddi riayət etməli, sanksiyalarla üzləşməmək üçün fəaliyyətlərindəki qanun pozuntularını aradan qaldırmalıdırlar.

> Vergi d yicil ri qanunvericiliyin t l bl rin riay t etm li, sanksiyalarla zl m m k f aliyy tl rind ki qanun pozuntular n aradan qald

***Vergi nəzarəti mexanizmləri informasiya texnologiyaları vasitəsilə aparılacaq***

Yoxlamaların həyata keçirilməsində yeni yanaşmalardan biri sahibkarların maarifləndirilməsi, öz öhdəlikləri barədə onların davamlı olaraq məlumatlandırılmasıdır. Sahibkarların yoxlama və nəzarət tədbirləri ilə üzləşməməsi üçün onlarla təşviqedici işlər aparılacaq.

Vergilər Nazirliyi sahibkarların öz vergi öhdəliklərini yerinə yetirməsi üçün mövcud sistemin daha da sadələşdirilməsini təmin edən yeniliklər tətbiq edəcək. Ödəyicilərin yoxlamaya məruz qalmamaları üçün qarşılıqlı əməkdaşlıq ən yüksək səviyyəyə çatdırılacaq. Hazırda sahibkarların yoxlamalarla tanış olmaları üçün Vergilər Nazirliyinin internet saytındakı «Vergi yoxlamaları: əsaslar və prosedurlar» səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamenti, eləcə də hüquqi əsasları barədə dolğun məlumatlar yerləşdirilib. Məqsəd yoxlanılan sahibkarların və yoxlayıcı orqanların hüquq və vəzifələrini, yoxlama zamanı tətbiq olunan prosedurların həyata keçirilməsi qaydalarını konkretləşdirməklə şəffaflığı təmin etməkdir. Sahibkarlar bu səhifəyə daxil olmaqla öz təsərrüfat subyektlərində aparılan yoxlamaların predmeti, nəticələri haqqında lazımi informasiyaları əldə etmək imkanı qazanırlar.

**Elbrus CƏFƏRLİ**

# «Elektron hökumət»in rəqəmsallaşması xidmətlərin keyfiyyətcə yeni formada təqdimatıdır



«Elektron hökumət» dedikdə, bir çoxlarının ilkin təsəvvürünə informasiya və kommunikasiya texnologiyalarının geniş istifadəsi nəticəsində yaranan münasibətlər gəlir. Əslində isə «Elektron hökumət»in mərkəzində elektronlaşma deyil, məhz hökumət dayanır və burada İKT, sadəcə, vasitə kimi çıxış edir. Bu baxımdan, «Elektron hökumət» quruculuğuna texniki tərəqqi prizmasından deyil, vətəndaş mərkəzli dövlət idarəetməsinin təkmilləşdirilməsi və daha effektiv fəaliyyəti kimi yanaşmaq lazım gəlir.
«Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzlə müsahibəmiz elə bu barədədir.

***- Osman müəllim, Prezident İlham Əliyev «Elektron hökumət»in inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında» fərman imzalayıb. «Elektron hökumət»dən rəqəmsal hökumətə keçid anlayışını necə izah etmək olar?***

- Dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi dövlət siyasətinin prioritetlərindəndir. İndiyədək Azərbaycanda bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olub, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldəetmə azadlığı təmin edilib.

Azərbaycanda sistemli formada «Elektron hökumət» quruculuğu 10 il bundan əvvəl başlayıb. O vaxta qədər ayrı-ayrı dövlət qurumlarında bu sahədə müəyyən işlər aparılırdı. Ölkə başçısının «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan) təsdiq edilməsi haqqında» sərəncamı, «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanı və digər normativ hüquqi aktlarla «Elektron hökumət»in fəaliyyəti üçün hüquqi baza yaradılıb. «E-hökumət» təkcə texnologiyanın inkişafı ilə bağlı fenomen deyil, o, bütövlükdə dövlət və cəmiyyətin transformasiyası ilə bağlı olan və son nəticədə elektron idarəetməyə gətirib çıxaran prosesdir. Qloballaşma və iqtisadiyyatın liberallaşması, informasiya texnologiyalarından istifadənin genişlənməsi, demokratikləşmə və sosial dəyişikliklərin təsiri altında elektron idarəetmənin 3 əsas komponenti: e-hökumət, e-biznes, e-cəmiyyət formalaşmışdır.

«Elektron hökumət» - informasiya texnologiyaları və xüsusən də internetdən istifadə olunmaqla hökumətin təqdim etdiyi xidmət və məlumatların vətəndaşlar, sahibkarlar, dövlət qurumları və digər ictimai təşkilatlara ötürülməsini ehtiva edir. «E-hökumət»də texnologiyalardan istifadə edilməsi dövlətin təqdim etdiyi xidmətlərin vətəndaşlara operativ çatdırılması, biznes və sənaye sahələri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, vətəndaşların informasiyaya çıxışının təmin olunması ilə bağlı hüquq və imkanlarının genişləndirilməsi və daha effektiv idarəetməyə xidmət edir. Bunun nəticəsi olaraq, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın artması və xərclərin azalması müşahidə edilir.

***- Azərbaycanda «Elektron hökumət» quruculuğu böyük bir yol keçib. Bu sahəyə zamanın gətirdiyi yeni çağırışlar özünü daha çox nədə ifadə edir?***

- «Elektron hökumət»lə bağlı indiki çağırışlar bir qədər fərqlidir. Daha çox mobil texnologiyalar üzərindən, müxtəlif sahələrin rəqəmsallaşması ilə bağlı tələblər var.10 illik inkişaf artıq qarşıya yeni tələblər çıxarıb. Bir incə məqama diqqət yetirsək, «Elektron hökumət»dən rəqəmsal sahəyə keçid prosesində daha çox mobil hökumət quruculuğuna, xidmətlərin mobilləşdirilməsinə diqqət yetiriləcək. Belə demək mümkünsə, «Elektron hökumət» quruculuğunun yeni bir inkişaf mərhələsinə keçid nəzərdə tutulur. Yəni dövlətə məxsus olan bütün məlumat sistemlərinin, məlumat bazalarının inteqrasiyası baş verəcək. Bunun nəticəsində 100 dövlət qurumundan hansısa birində vətəndaşla bağlı informasiya varsa, artıq bu, yetərli olacaq: qalan 99 dövlət qurumu bundan istifadə edə biləcək. Qurumlar hamısı bir-biri ilə əlaqəli işləyəcək.

Bu baxımdan, «Elektron hökumət»in inkişafı və rəqəmsal hökumətə keçid müasir zamanın diktə etdiyi zərurətdir, bu sahədə nəzərdə tutulan vəzifələrin icrası çevik və effektiv ellektron xidmətlərin əldə olunmasına imkan verən mərhələyə keçməyə imkan yaradacaq.

***- «Rəqəmsal hökumət»ə keçid insanların gündəlik həyatında nə kimi dəyişikliklər yaradacaq?***

- «Elektron hökumət» konsepsiyasının təşəkkülündə informasiya cəmiyyətinin formalaşması və inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu proses kompüterləşmə, informasiyalaşdırma və ictimai məlumatlandırmanın artmasına, son nəticədə isə bu sahənin təşəkkülünə gətirib çıxarır. Vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq lazımdır. Bu prosesin nəticələrindən isə dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq məqsədilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçidin sürətləndirilməsi zəruridir.

Gözlənilən əsas dəyişikliklər xidmətlərin daha effektiv yolla əldə olunmasına hesablanıb. Məsələn, mobil qurğular -telefon, planşet və s. ilə xidmətlər daha asan olacaq. Vətəndaşlardan kağız formasında informasiyaların - ərizələrin, notarial qaydada təsdiqlərin əldə olunmasına son qoyulacaq, insanlar daha çox informasiyaları elektron formada mobil üsullarla əldə edə biləcəklər. Bu, ikinci məqamdır. Üçüncü məqam isə daha böyük əhəmiyyət kəsb edəcək - hökumətin özündə xərclərə qənaət olunacaq. İndiyə qədər tənzimləyici və əlaqələndirici qurumun tam şəkildə təsbit olunmaması müəyyən dövlət qurumlarında təkrar informasiya bazalarının yaranmasına gətirib çıxarırdı. Bir dövlət qurumunda vətəndaşlarla bağlı məlumat olmasına baxmayaraq, başqa dövlət qurumu da bunu yaradırdı. Yəni informasiya sistemləri təkrarlanırdı, oxşar informasiya sistemləri vardı ki, bu da böyük büdcə xərcləri deməkdir. «Rəqəmsal hökumət» sistemi büdcə xərclərinə qənaət etməyə də imkan yaradacaq.

> **Vətəndaşlardan kağız formasında informasiyaların - ərizələrin, notarial qaydada təsdiqlərin əldə olunmasına son qoyulacaq, insanlar daha çox informasiyaları elektron formada mobil üsullarla əldə edə biləcəklər**

Dövlətin əlində nəhəng informasiya bazaları olsa da, hazırda bu imkanlardan özəl sektor, biznes qurumları istifadə edə bilmir. Əgər orda bir dövlət sirri, təhlükə yaradacaq məqamlar yoxdursa, bu məlumat bazalarından biznes sektoru, vətəndaşlar özləri istifadə edib biznesin inkişafı üçün faydalana bilərlər ki, bu da biznes mühitinin sağlamlaşdırılması üçün əsas şərtlərdəndir.

***- Uzun illərdir ki, dövlət orqanlarının qanunvericilikdə nəzərdə tutulan informasiyaları necə açıqlamalarının monitorinqini həyata keçirirsiniz. Son çıxışınızda bildirmisiniz ki, Vergilər Nazirliyinin internet resurslarına yenidən baxılması zərurəti yaranıb...***

- 2007-2008-ci illərdən başlayaraq, Vergilər Nazirliyində informasiya texnologiyalarının tətbiqi, elektron vergi sisteminin qurulması, informasiya açıqlığı, bu sahədə şəffaflığın təmin edilməsi, yəni informasiyaların İnternet Vergi İdarəsi tərəfindən açıqlanması ilə bağlı vergi orqanları öndə olub. Ancaq bu da bir reallıqdır ki, dünyada texnologiyaların xeyli inkişaf etməsi nəticəsində informasiyanı daha rahat, daha tez əldə etməyə imkanlar yaranıb. Vergilər Nazirliyi də uzun illər formalaşan bu elektron xidmətlərin, informasiyanın açıqlanmasının, vətəndaşlarla əlaqələr qurulmasının daha çevik metodlarını tapsa, yaxşı olardı. Bu sahədə müəyyən problemlər, çətinliklər olduğunu görürük. Düşünürəm ki, nazirlikdə internet resursları bazası təkmilləşdirilməli, həm daha tez, rahat əldə edilən səviyyədə qurulmalıdır, həm də struktur, dizayn cəhətdən də yenilənməlidir. Çünki əvvəlki tələblər əsasında qurulmuş dizayn indiki tələblərə cavab vermir. Hesab edirəm ki, bu məsələlərə yenidən baxılması ümumi işimiz üçün faydalı olar.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# «Elektron hökumət»dən «Rəqəmsal hökumət»ə...

Prezident İlham Əliyev «Elektron hökumət»in inkişafı və «Rəqəmsal hökumət»ə keçidlə bağlı tədbirlər haqqında fərman imzalayıb. Sənədə əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə elektron hökumət sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirmək, «Elektron hökumət» portalının fəaliyyətinin təmin olunması və təkmilləşdirilməsi üçün zəruri tədbirlər görmək barədə tapşırıqlar verilib. Agentlik «Rəqəmsal hökumət»ə keçid üzrə Fəaliyyət Planı» layihəsini hazırlayacaq. Nəzərdə tutulan vəzifələrin icrasını təmin etmək məqsədilə Agentliyin tabeliyində «Elektron Hökumətin İnkişafı Mərkəzi» publik hüquqi şəxs yaradılacaq.

**«Rəqəmsal hökumət» nədir?**

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Aqil Əsədov bildirib ki, ölkəmizdə dövlət-özəl sektor-vətəndaş münasibətlərinin müasir tələblərə uyğun qurulması prosesi başlayıb və bu münasibətlərin formalaşması üçün rəqəmsal mühitin yaradılması zəruridir. Azərbaycanda «E-hökumət» quruculuğunun cəmiyyətin həyatına dərin nüfuz etməsi artıq elektron xidmətlər sferasında yeni mərhələyə - «Rəqəmsal hökumət» yaradılması prosesinə keçidi labüdləşdirir: «Rəqəmsal hökumət»in hədəfi ən müasir, innovativ informasiya texnologiyalarından fəal istifadə etməklə dövlət xidmətlərinin səmərəliliyinin artırılması, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmətlərin tam elektronlaşdırılması, dövlət-biznes, biznes-dövlət elektron xidmətlərinin inkişafı və demokratik cəmiyyət quruculuğunun gücləndirilməsidir. «Rəqəmsal hökumət» quruculuğu iqtisadi, sosial inkişafa təkan verməklə yanaşı, ölkənin milli informasiya təhlükəsizliyinin etibarlı mühafizəsi baxımından da əhəmiyyət kəsb edir. Bu, idarəçilikdə səmərəliliyin və partnyorluğun, şəffaflığın yaradılmasında ən yaxşı modeldir. Bu model kibertəhlükəsizliyin və elektron idarəçiliyin möhkəmlənməsi, cəmiyyətin açıq informasiya əldə etməsi baxımından da mütərəqqi hesab olunur».

> Rəqəmsal texnologiyaların geniş tətbiqi müasir informasiya cəmiyyətinin əsas atributlarındandır

İqtisadçının rəyinə əsasən, rəqəmsal texnologiyaların geniş tətbiqi müasir informasiya cəmiyyətinin əsas atributlarındandır. Hazırda Sinqapur, Danimarka, ABŞ, Yaponiya, Estoniya, Kanada, Yeni Zelandiya, Cənubi Koreya, Böyük Britaniya, Tayvan və digər ölkələr rəqəmsallaşmanın səviyyəsinə görə dünyada ən inkişaf etmiş ölkələrdir. Həmin ölkələrdə rəqəmsallaşma artıq cəmiyyətin adi həyat tərzinə çevrilib.

Azərbaycan Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramına üzv ölkələrdən biri kimi, Avropa ölkələri ilə elektron idarəçiliyin inkişafı sahəsində sıx əməkdaşlıq etmək niyyətindədir. Bu mənada, «Rəqəmsal hökumət» quruculuğu həmin əməkdaşlığın əhəmiyyətli komponenti ola bilər. A.Əsədovun sözlərinə görə, respublikamızda «Rəqəmsal hökumət»ə keçid üçün yaxşı infrastruktur mövcuddur, «Elektron hökumət» rəqəmsal cəmiyyətin davamlı inkişafı üçün lokomotiv rolunu oynayır. Bəzi sahələrdə artıq rəqəmsal transformasiya proseslərinə başlanılıb, bank sistemində bu istiqamətdə xidmət çeşidlərinin tətbiqinə start verilib. Azərbaycanda rəqəmsal şəxsiyyət vəsiqəsinə keçidlə bağlı ötən ildən hazırlıq işləri aparılır və yaxın vaxtlarda bu proses başa çatdırılacaq.

**Vergi sistemində rəqəmsal texnologiyaların tətbiqi**

Rəqəmsal xidmətlərin tətbiqinin genişləndirilməsi Vergilər Nazirliyinin də qarşısında duran mühüm vəzifələrdəndir və bu sahədə müəyyən işlər görülüb. «Elektron hökumət»dən mobil hökumətə keçid strategiyasının ən mühüm vasitəsi olan «ASAN imza» layihəsi özünü doğruldaraq, artıq Azərbaycanın brendinə çevrilib. Bütün mövcud e-xidmətlərdən istifadəni mümkün edən «ASAN imza» biznesin inkişafına, yerli və xarici sahibkarların qeydiyyatının və fəaliyyətinin asanlaşmasına, rəqəmsal xidmətlərdən faydalanmağa şərait yaradır. 2015-ci ildə «ASAN imza» mobil elektron imza xidmətinin Hökumət Ödəniş Portalına inteqrasiya edilməsi və vətəndaşların portal vasitəsilə ödənişləri rahat şəkildə həyata keçirməsi (vergilər və digər dövlət rüsumları, ipoteka ödənişləri, kommunal, rabitə xidmətləri və digərləri) nağdsız ödənişlərin stimullaşdırılmasında mühüm bir vasitəyə çevrilib. «ASAN imza» Azərbaycanın ixrac potensialının artırılmasında biznes üçün səmərəli bir vasitəyə də çevrilməkdədir. Bu xidmət «Azexport.az» portalına inteqrasiya edilməklə «Made in Azerbaijan» brendi ilə ixrac olunan məhsulların istehsalçıları ilə dünyanın nüfuzlu biznes nümayəndələri arasında elektron ticarət mübadiləsinin yaradılmasına töhfə verir.

Hazırda Vergilər Nazirliyində həyata keçirilən yeni islahatlar kursuna uyğun olaraq elektron xidmətlərin çeşidinin artırılması, müasir rəqəmsal texnologiyaların tətbiqi üzərində səmərəli işlər aparılır. Nazirlik müasir çağırışları və əsas trendləri yaxından izləyərək vergi orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması üçün rəqəmsal texnologiyaların təkmilləşdirilməsi ilə bağlı siyasəti davam etdirəcək. Vergi inzibatçılığının rəqəmsallaşdırılması, vergi orqanının fəaliyyətinin daha yüksək səviyyədə təşkil edilməsi üçün «blokçeyn» texnologiyalarına əsaslanan yanaşmaların tətbiqi öyrənilir. Hədəf vergi sistemində keyfiyyətli və geniş spektrli elektron xidmətlərin tətbiq edilməsi, sahibkarlarla vergi orqanları arasında canlı təmasın minimuma endirilməsidir. Vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi üçün bütün bunlar daha əlverişli şərait yaradacaq.

**E.CƏFƏRLİ**

SAD L D R LM VERG N N D Y C L R OLAN
H QUQ XSL R N N Z R N !

Bildiririk ki, Vergi Məcəlləsinin 219.5-ci maddəsinə əsasən, **01.01.2017-ci il tarixdən etibarən** sadələşdirilmiş verginin ödəyicisi olan hüquqi şəxslər eyni zamanda **əmlak vergisinin** ödəyicisi hesab olunurlar.

Əmlak vergisi müəssisənin əmlakının orta illik qalıq dəyəri əsasında hesablanır. Əmlakın qalıq dəyəri dedikdə, əsas vəsaitlərin ilkin dəyərindən həmin əsas vəsaitlərə hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyəri başa düşülür.

2017-ci ilin yanvar ayının 1-dən etibarən əmlak vergisinin ödəyicisi olan hüquqi şəxslər əmlak vergisini hesablamaq üçün hesabat ilinin əvvəlinə *(əvvəlki vergi ilinin sonuna müəyyən edilmiş qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər)* və sonuna əmlakın qalıq dəyərini toplayıb 2-yə bölür, alınan orta qalıq dəyərinə 1% vergi dərəcəsi tətbiq edirlər.

misal

Sad l dirilmi verginin d yicisi olan h quqi xsin mlak verg
edil n sas v saitl rinin (avton qliyyat vasit l ri istisna olmaql

01.01.2017›ci il tarix › 98.000 manat (ilin vv lin )
31.12.2017›ci il tarix › 85.000 manat (ilin sonuna).

Bu halda mlak vergisinin m qs dl ri n m ssis nin mlak n n
qal q d y ri (98.000+85.000) : 2 = 91.500 manat, hesablan illik
gisinin m bl i is 915 manat (91.500 x 1%) olacaqd r.

Odur ki, sadələşdirilmiş verginin ödəyicisi olan müəssisələr 2017-ci ilin yekununa görə əmlak vergisinin bəyannaməsini cari ilin aprel ayının 2-dən gec olmayaraq vergi orqanına təqdim etməyə və hesablanmış vergini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

**Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- Əmlak vergisinin bəyannaməsini müəyyən edilən müddətdə təqdim etməyən müəssisəyə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;
- Bəyannamə təqdim edilməzsə, vergi ödəyicisinə yayındırılmış əmlak vergisi məbləğinin *(kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla)* 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir;

- Əmlak vergisi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, bir ildən çox olmamaqla, vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1%**-i miqdarında faiz tutulur.

**Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

**Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, bu ilin yanvar-fevral aylarında dövlət büdcəsinin gəlirləri **2609,5 milyon** manat, xərcləri isə **2469,6 milyon** manat təşkil edib.
- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 3,0% artaraq **519,8** manata çatıb.
- Ötən iki ayda toxuculuq sənayesi, geyim, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı sahələrində **55 milyon** manat dəyərində məhsul istehsal edilib.
- Mərkəzi Bankın məlumatına görə, fevralın 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği **7497,0 milyon** manat təşkil edib.



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Elektron qaimə-faktura

***ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturası ilə bərabər, elektron qaimə-faktura da təqdim olunmalıdırmı?***

Vergi Məcəlləsinin (VM) 16.1.11-6-cı maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı VM-də nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verilməlidir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və VM-in 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Qeyd olunanlara əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturası ilə yanaşı, elektron qaimə-faktura da təqdim edilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Martın 15-də 3 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Siyəzən şəhərində yeni qeydiyyata alınmış vergi ödəyiciləri ilə görüşmüşlər. Kiçik və orta sahibkarlar tərəfindən İKT həllərinin tətbiqinin genişləndirilməsi üçün maarifləndirici və təşviqedici məqsəd daşıyan görüşdə vergi ödəyicilərinə elektron xidmətlərdən istifadənin mənimsənilməsi, vergilərin elektron qaydada ödənilməsi, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunmasına görə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydalar, hesablaşmaların yalnız nağdsız qaydada aparılması və elektron qaimə-fakturanın tətbiqinin vacibliyi barədə məlumat verilmiş, sahibkarları maraqlandıran suallar cavablandırılmışdır.
- Martın 16-da 3 saylı ƏVİ tərəfindən Şabran şəhər 5 nömrəli tam orta məktəbin şagirdləri ilə görüş keçirilmişdir. Məktəblilərin vergilər haqda anlayış və biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi adətlərini aşılamaq məqsədi daşıyan tədbirdə idarənin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin əməkdaşı Rəşid Şükürov vergilərin növləri, vergi yükü, vergi ödəməyin vacibliyi barədə maarifləndirici söhbət aparmışdır.
- 3 saylı ƏVİ-nin əməkdaşlarının Xaçmaz rayonunda fəaliyyət göstərən «Vergi dostları» ilə görüşünün başlıca məqsədi isə yerli ictimaiyyət nümayəndələri ilə əməkdaşlıq olmuşdur. Rayonun kənd və qəsəbələrində fəaliyyət göstərən müəllimlərlə aparılmış söhbət zamanı Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərin başlıca mahiyyəti, e-qaimənin tətbiqi və yeni qeydiyyata alınmış vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə əməletmə vəziyyəti müzakirə olunmuşdur. Bələdiyyə nümayəndələri ilə görüşdə isə əsas diqqət bələdiyyə vergilərinin yığılması ilə bağlı ortaya çıxan problemlərin aradan qaldırılmasına yönəldilmişdir.
- Martın 19-da Sumqayıtda 2 saylı ƏVİ əməkdaşlarının bələdiyyə təmsilçiləri ilə görüşü olmuşdur. Görüşdə elektron xidmətlərdən istifadənin mənimsənilməsi, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması, ödənilməsi, torpaq və əmlak vergisinə edilmiş dəyişikliklər, yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyata alınması sahəsində bələdiyyələrə metodiki köməkliyin göstərilməsi mövzusunda söhbət aparılmışdır.

# Vergi borcunuz varmı?

## *Vergilər Nazirliyinin elektron xidmətlərindən istifadə etməklə bu suala dərhal cavab ala bilərsiniz*

**Dünyanın hansı ölkəsinə getsən, vergi öhdəliklərinin icrasından yayınmaq, vergi borcuna etinasız yanaşmaq məsuliyyət yaradır və bir sıra dövlətlərdə bununla bağlı çox sərt cəzalar tətbiq olunur. Xüsusən vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs qoyulması vergi intizamının yüksək səviyyədə saxlanmasının ən güclü mexanizmi hesab edilir.**

Bəzən məlumatsızlıqdan, bir sıra hallarda isə məsuliyyətsizlikdən meydana çıxan bu cür problemlərin qarşısının alınması üçün Vergilər Nazirliyi bütün zəruri tədbirləri həyata keçirir. Vergi ödəyicilərinin işini asanlaşdırmaq məqsədilə həyata keçirilən maarifləndirmə və məlumatlandırma işləri mütəmadi xarakter daşıyır. Vergi inzibatçılığının və vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi nəticəsində vergi ödəyicilərinə vergi borclarının yaranma səbəbləri, həmin borcların məbləği, ödənilmə qaydaları haqqında daha asan yollarla məlumat almaq imkanları yaradılır. İndi vergi ödəyiciləri vergi orqanına yazılı müraciət etmədən vergi borcu barədə məlumat ala bilirlər.

İlk və daha asan metod «195» Çağrı Mərkəzinə zəng edib «1» düyməsi ilə Vergilər Nazirliyinə qoşulduqdan sonra «3» düyməsinin seçilməsi və daha sonra VÖEN-i daxil edib «#» düyməsini sıxmaqla həmin tarixə vergi borcu barədə məlumat əldə etməkdir. İkinci metod: İnternet Vergi İdarəsinə daxil olmaqla vergi ödəyicisi ona məxsus istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə «E-bəyannamə, ƏDV-DH və ŞHV» (https://login.e-taxes.gov.az/login/) bölməsinə daxil olub, sonra «Məlumat axtar» altbölməsindəki «Şəxsi hesab vərəqəsi»nə qoşulmaqla öz öhdəlik və borcu ilə bağlı məlumatları əldə edə bilər. Üçüncü metod isə Vergilər Nazirliyinin təqdim etdiyi «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşularaq (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatların əldə edilməsidir. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes (məsələn: *195*00000541*121756#yes) yığmaqla qeydiyyatdan keçmək tələb olunur. Xidmətə abunə olduqdan sonra qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərməklə 21 sayda vergi öhdəlikləri barədə məlumatı SMS vasitəsilə almaq olar. Xidmətə abunə olmadıqda isə qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə müvafiq rəqəmləri yazıb SMS göndərməklə (1 - dövlət büdcəsinə olan vergi borcu, 2 - təqdim edilməli bəyannamələr, 3 - fəaliyyətinin aktiv və ya dayandırılmış olması, 4 - elektron qutuda oxunmamış məktubların olub-olmaması və 5 - qeydiyyatda olan təsərrüfat subyektləri barədə) məlumat almaq mümkündür.

**Rəşad SADIQOV**

# Biznes sektorunun problemləri təhlil edilir

## «PricewaterhouseCoopers» («PwC Azərbaycan») konsaltinq şirkəti biznes mühitinin vəziyyətinə dair hesabatın nəticələrini açıqlayıb

**«CEO Survey – 2018» adlı hesabatın hazırlanması üçün keçirilmiş sorğuda biznes sektorunun 40 təmsilçisi iştirak edib ki, onların 90%-dən çoxu özəl sektorun nümayəndələridir. «PwC Azərbaycan» şirkətinin Azərbaycan üzrə idarəedici partnyoru Mövlan Paşayev bildirib ki, iri şirkət rəhbərlərinin sorğusu əsasında ölkədə biznesin vəziyyəti araşdırılıb.**

Araşdırma neft-qaz, telekommunikasiya, maliyyə və pərakəndə ticarət də daxil olmaqla iqtisadi sektorun bir çox sahələrini əhatə edib. Araşdırma zamanı biznes icması üzvlərinə qlobal iqtisadi tendensiyalar və onların təsiri, biznes mühiti və işgüzar dairələrdəki vəziyyətə dair bir çox məsələlər, həmçinin şirkət rəhbərlərindən hökumətin həyata keçirdiyi tədbirlərin effektivliyi qiymətləndirilib. Bundan əlavə, biznesin inkişafı ilə bağlı tövsiyə edilmiş planlar nəzərdən keçirilib.

Qeyd edilib ki, Azərbaycan iqtisadiyyatının 2016-cı ildə üzləşdiyi qlobal tendensiyalar nəticəsində biznes qurumları bir sıra problemlərlə üzləşsələr də, onların böyük əksəriyyəti bu çətinliklərin öhdəsindən gəlməyi bacarıb: «2016-cı il yalnız Azərbaycan deyil, bütövlükdə dünya iqtisadiyyatı üçün çətin olub. Bunun əsas səbəblərindən biri geosiyasi risklərdir. Son böhran prosesləri biznes üçün sanki bir sınaq olub. Təhlükələr olduğu yerdə fürsətlər də yarandı: böhran yerli biznesi dəyişkən iqtisadi mühitdə öz strategiyalarını və biznes modellərini yenidən nəzərdən keçirməyə məcbur etdi. Nəticədə biznes sektoru yeni çağırışlara uyğun hərəkət etməyə başladı. 2017-ci il stabilləşmə ili oldu və milli iqtisadiyyatın bərpa prosesi, qeyri-neft sektorunun çəkisinin artması, ixracda müsbət saldonun əldə edilməsi ümumi iqtisadi vəziyyətlə bağlı müsbət rəy formalaşdırdı. Hazırda şirkət rəhbərlərinin 66%-i öz iqtisadi durumundan, inkişaf perspektivlərindən əminliyini ifadə edir. İri biznes təmsilçiləri iqtisadiyyatın və əmtəə qiymətlərinin sabitləşməsi, ölkədə aparılan institusional islahatlar və iqtisadi şaxələndirmə fonunda qısa və ortamüddətli inkişaf perspektivlərinə nikbin baxırlar».

«PwC Azərbaycan» şirkətinin məsləhət xidmətləri üzrə aparıcı mütəxəssisi Vədad Rzalı qeyd edib ki, müsbət tendensiyalara baxmayaraq, iri sahibkarlıq sektorunun biznes inamı hələ tam bərpa olunmayıb. Risklər müxtəlif istiqamətləri əhatə edir. Son devalvasiyalar və iqtisadiyyatın diversifikasiyasına dair aparılan tədbirlər milli valyutanın nisbi sabitliyini təmin edib. Buna baxmayaraq, sorğuda iştirak edənlərin 88%-i hesab edir ki, maliyyə bazarlarında valyuta dəyişkənliyinin baş verməsi, məzənnədəki qeyri-sabitlik hələ də risk olaraq qalır. Regiondakı geosiyasi qeyri-sabitlik, əsas infrastrukturun kifayət qədər inkişaf etməməsi, müxtəlif sahələrdə iqtisadi artımın azğı düşməsi, əlverişli kapitala və maliyyə xidmətlərinə çıxışın məhdudluğu da biznes üçün iqtisadi risklər yaradır. Həmin meyarlar üzrə biznes təmsilçilərinin təxminən 70%-ində hələ də nigaranlıq qalmaqdadır.

Biznes sektorunda əsas problemlərdən biri səriştəli kadr çatışmazlığıdır. Sorğuda iştirak edən iştirakçıların 83%-i yaxşı kadrların olmaması üzündən biznesin təşkili, marketinq və bazar axtarışlarında çətinliklərlə üzləşir. Son 2 ildə iri biznesin əsas tərəfdaşları olan istehlakçıların mal və xidmətlər üzrə sifarişlərinin azalması da risk yaradan amillərdir. İri şirkətlərin təmsilçilərinin 75%-i istehlakçıların xərclərində və davranışlarında dəyişikliklər olduğuna görə, biznesin gəlirliliyinin azaldığını bildirirlər.

Biznes sektorunun nümayəndələri vergi sahəsində islahatlara ehtiyac olduğunu bildiriblər. Vergi ödəyicilərinin vergi yükü ilə bağlı narahatlıqları vergi dərəcələrinin yüksək olması ilə bağlı deyil, çünki son illərdə vergi qanunvericiliyi təkmilləşdirilərkən vergi yükünün aşağı salınması istiqamətində müvafiq addımlar atılıb, amma əsas problem vergitutma zamanı, dövriyyəsindən asılı olmayaraq, biznesin bütün qruplarına eyni yanaşmanın tətbiq edilməsidir. Araşdırmalar göstərir ki, 2016 və 2017-ci illərdə vergi yükünün qeyri-mütənasib paylaşdırılması nəticəsində fiskal tarazlıq pozulub.

> Biznes sektorunda vergi yükünün taraz şəkildə müəyyən edilməsi, fiskal öhdəliklərin real iqtisadi vəziyyətə və biznesin inkişaf göstəricilərinə, əldə olunan gəlirə uyğun hesablanmasına dair inam yaranıb

M.Paşayev bu məsələyə münasibət bildirərək vurğulayıb ki, 2018-ci ildən etibarən vergi sistemində aparılan islahatlar çərçivəsində vergi yükünün optimallaşdırılması ilə bağlı səmərəli mexanizmlərin tətbiqi nəzərdə tutulur. Biznes sektorunda vergi yükünün taraz şəkildə müəyyən edilməsi, fiskal öhdəliklərin real iqtisadi vəziyyətə və biznesin inkişaf göstəricilərinə, əldə olunan gəlirə uyğun hesablanmasına dair inam yaranıb və növbəti hesabatda vergi yükü üzrə biznes sektorunun mövqeyində əhəmiyyətli müsbət dəyişikliklərin olacağına əminlik böyükdür.

Hesabatda ixracın səmərəliliyi milli ixracatçılar üçün müsbət dəyərləndirilib və xarici bazarlara çıxışın şaxələndirilməsində əlverişli mövqe qazanılması yaxşı imkanlardan biri hesab olunur. Qeyd edilib ki, qeyri-neft ixracının coğrafiyasının genişlənməsi və ticarət tərəfdaşlarının sayının artması nəzərə çarpmaqdadır. İqtisadi perspektiv baxımından Rusiya bazarları ixracatçılar üçün yenə də üstünlük təşkil edir. Türkiyə də əsas tərəfdaş kimi əhəmiyyətini itirməyib, Çin bazarının payı isə son illərdə xeyli artıb.

Azərbaycanın biznes sektorunun inkişafına maneələrdən biri də dünyada tətbiq edilən rəqəmsal texnologiyaların tətbiqinin zəif olmasıdır. Bu sahəyə xüsusi diqqət yetirilməsinə baxmayaraq, yeni texnologiyaların tətbiqi biznes üçün arzu edilən nəticəni vermir. Halbuki müasir dövrdə rəqəmsallaşma biznesin inkişafında ən mühüm amillərdəndir.

**Elbrus CƏFƏRLİ**

# V t nda lar n maliyy sektoruna etimad b rpa olunur

**Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən yaradılmış daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin təqdimatı olub. Qurumun baş icraçı direktoru İbrahim Alışov təqdimat mərasimində çıxışında 2016-2017-ci illər ərzində dövlət təşkilatları, publik hüquqi şəxslər, habelə maliyyə bazarlarının iştirakçıları tərəfindən ölkə Prezidentinin müəyyənləşdirdiyi iqtisadi siyasətin icrası nəticəsində müsbət iqtisadi meyillərin yarandığını, inflyasiyanın azaldığını, milli valyutanın məzənnəsinin sabitləşdiyini, bank sektoruna kapital qoyuluşlarının təmin edildiyini, əmanətlərin artdığını və əhalinin maliyyə sektoruna etimadının bərpa olunduğunu bildirib.**

Maliyyə bazarlarına etimadın bərpası və kredit aktivliyinin artırılması istiqamətində aparılmış xüsusi əhəmiyyətli institusional islahatlar isə Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun və Özəl Kredit Bürosunun yaradılması olub. Baş icraçı direktor daşınar əmlakın yüklülüyünün reyestrinin formalaşdırılmasının da maliyyə vasitəçiliyinin dərinləşməsində əhəmiyyətli rola malik olacağını deyib. Reyestrin əsas fəaliyyət prinsiplərinin dövlət qeydiyyatında olmayan əmlakların yüklülüyünün bazasının yaradılması, borcverən tərəfindən bu məlumatlara sərbəst çıxışının təmin edilməsi, yüklü əmlakın təkrar istifadəsinin məhdudlaşdırılması, yüklü edilmiş əmlakın məhkəmədənkənar realizasiyası və bununla da təminat çeşidinin artırılması olduğunu qeyd edən İ.Alışov sözügedən reyestrin ölkədə yeni kreditləşmə fazasına keçidi şərtləndirən amil olacağını vurğulayıb. «Reyestrin effektiv fəaliyyəti daşınmaz əmlak təminatı olmayan hüquqi və fiziki şəxslərin daşınar əmlaklarını reyestrdə yüklü etməklə kredit təşkilatlarından vəsaitlər cəlb etməsini stimullaşdıracaq ki, bu da nəticədə maliyyə əlçatanlığının artımını şərtləndirəcək. Bundan əlavə, reyestrin fəaliyyəti biznes mühitinin əlverişliliyinə müsbət töhfə verəcək və ölkənin beynəlxalq reytinqlərinin yüksəlməsini şərtləndirəcək», - deyə baş icraçı direktor diqqətə çatdırıb.

Təqdimat mərasimində iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Maliyyə Bazarlarına Nəzarət Palatasının bu təşəbbüsünü yüksək qiymətləndirərək, daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin ölkə iqtisadiyyatına verəcəyi töhfənin uğurlu olacağını bildiriblər.

Qeyd edək ki, daşınar əmlakın yüklülüyünün dövlət reyestri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin 2.3.2-ci tədbirinə uyğun olaraq yaradılıb.

# Gəl, baharım...

**Azərbaycan Dövlət Akademik Dram Teatrında Vergilər Nazirliyinin təşkilati dəstəyi ilə valideyn himayəsindən məhrum, qayğıya ehtiyacı olan uşaqların məskunlaşdığı internat tipli məktəblərin və uşaq evlərinin şagirdləri üçün «Gəl, baharım, gəl, yazım» adlı Novruz tamaşası nümayiş etdirilib.**



Teatrın geniş salonunu şən musiqi sədaları altında uşaqların sevinc dolu gülüşləri, alqış sədaları bürümüşdü. Yazın gəlişi üçün qəribsəmiş balacalar Bahar qızla birlikdə Bağbanın, Əkinçinin, Çobanın çıxışlarını, rəqslərini maraqla izləyirdilər. Baharı gətirən çərşənbələrin (su, od, yel, torpaq) xarakterik xüsusiyyətinə uyğun bəzədilmiş geyimlər, Bahar qızın al-əlvan gül-çiçəkdən hörülmüş çələngi, göy qurşağına bənzəyən rəngarəng geyimi göz oxşayırdı. Maraqlı səhnə dekorasiyası, aktyorların, ümumilikdə bütün yaradıcı heyətin böyük ruh yüksəkliyi, obrazların sevgi ilə və peşəkarcasına canlandırılması, canlı ünsiyyət məktəblilərin ürəyincə idi. Novruz bayramının qədim personajları - Kosa ilə Keçəlin gülməli dialoqları, xalq yaradıcılığından gələn və uşaqların da aktyorlarla birlikdə əzbər söylədikləri nəğmələr sürəkli alqışlarla müşayiət olunurdu.

Tamaşadan sonra aktyorlar məktəbliləri bayram münasibətilə təbrik edərək onlara müvəffəqiyyətlər arzuladılar. Vergilər Nazirliyinin əməkdaşlarının da iştirak etdiyi tədbirə dəvət olunan uşaqlara nazirlik tərəfindən bayram hədiyyələri təqdim olundu.

Tədbirin sonunda KİV nümayəndələri üçün təşkil edilmiş brifinqdə vergilər nazirinin müşaviri Elçin Məmmədov məktəbliləri qarşıdan gələn bayram münasibətilə təbrik etdi, onlara dərslərində uğurlar arzuladı. Qeyd edildi ki, gənc nəslə diqqət və qayğı dövlətimizin siyasətində mühüm yer tutur və Vergilər Nazirliyi bu siyasətdən kənarda qalmır: «Qayğıya ehtiyacı olan, eləcə də tədris ilində yüksək nəticələr göstərən məktəbliləri Novruz bayramı ərəfəsində bu tədbirə dəvət etməkdə məqsədimiz onlarda biliyə, mədəniyyətə, milli dəyərlərə marağı daha da artırmaqdır. Bu, Vergilər Nazirliyinin cəmiyyət qarşısında sosial öhdəliyidir. Bununla yanaşı, biz gənc nəsildə vergilərə dair maraq oyatmaq üçün ilboyu davamlı tədbirlər keçiririk».









## Tədbir iştirakçılarının təəssüratları...

*Anar Babalı, tamaşanın rejissoru:* «Vergilər Nazirliyinin təşəbbüsü ilə uşaqlara hədiyyə etdiyimiz bu tamaşada mövzu baharın gəlişinin gecikməsidir: qış getmək istəmir, torpaq öz istiliyini bərpa edə bilmir, əkin gecikir. Tamaşa uşaqların maarifləndirilməsinə, təlim-tərbiyəsinə yönəldilib. Burada əkinçilik, torpağa bağlılıq, zəhmətsevərlik təbliğ olunur. Fəsillərin seçilməsi, qışın, baharın funksiyalarının müəyyənləşdirilməsi uşaqların zehnini açır, qavrama qabiliyyətini artırır. Tamaşa bütövlükdə o fikri aşılayır ki, təbiətdə heç bir qəddar qüvvə yoxdur».

*Mirzə Ağabəyli, Bağban obrazının ifaçısı:* «Vergilər Nazirliyinin uşaqlara hədiyyə etdiyi bu tamaşada rol aldığım üçün çox xoşbəxtəm. Ailə istiliyi, valideyn məhəbbəti kimi dünya sevinclərindən məhrum bu məsum balaları sevindirməkdən gözəl nə ola bilər ki?».

*Rada Nəsibova, Bahar qız obrazının ifaçısı:* «Uşaqlar bizim sevincimizdir, gələcəyimizdir. Onlara sevinc bəxş etməkdən, bayram duyğularımızı bölüşməkdən çox məmnunam».

*Ağca Cəfərova, 8 saylı Buzovna sanatoriya tipli internat məktəbinin müəllimi:* «Vergilər Nazirliyi sosial məsuliyyət strategiyası çərçivəsində ictimaiyyət üçün faydalı təşəbbüslərin dəstəklənməsinə daim diqqətlə yanaşır. Bugünkü tədbirə birinci sinifdən dördüncü sinfədək ibtidai sinif şagirdlərini gətirmişik. Belə tədbirlərin keçirilməsi uşaq psixologiyası üçün çox əhəmiyyətlidir. Burada əsas məqsəd valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətə inteqrasiyasına dəstək vermək, tədris ilində yüksək nəticələr əldə etmiş şagirdlərin təhsilə marağını stimullaşdırmaqdır. Uşaqların sevinci hər şeyə dəyər».

*Pərxanım İsgəndərova, 1 saylı Şüvəlan ailə tipli kiçik qrup evinin müəllimi*: «Belə tədbirlərin uşaqların dünyagörüşünün formalaşması, xalq yaradıcılığı, nağıl, mərasim qəhrəmanları ilə tanışlığı baxımından əhəmiyyəti böyükdür. Xüsusi məktəblərin şagirdləri də cəmiyyətin üzvüdürlər və cəmiyyət həyatında fəal iştirak etməlidirlər. Uşaqlara bayram sevincini hiss etdirmək imkanı yaratdığı üçün Vergilər Nazirliyinin kollektivinə minnətdarlığımızı bildiririk».

*İlahə Hüseynzadə, 8 saylı Buzovna sanatoriya tipli internat məktəbinin 4-cü sinif şagirdi:* «Ən çox xoşuma gələn Kosa ilə Keçəlin oyunu oldu»...

*Nuray Həsənova, 8 saylı Buzovna sanatoriya tipli internat məktəbinin 4-cü sinif şagirdi:* «Bu bayram şənliyinin təşkilatçılarına minnətdarlığımı bildirirəm. İstəyirəm ki, bayramda heç kim küsülü qalmasın, hamı mehriban olsun»...

*Murad Əbdülxalıqov, 1 saylı internat məktəbin 8-ci sinif şagidi:* «Novruzda hamı birlikdə olmalı, gözəl sözlər söylənilməli, xoş diləklər edilməli, yaxşı işlər görülməlidir. Bayram hamıya sevinc gətirməlidir».

*Fatimə Məmmədova, 1 saylı tam orta internat məktəbinin şagirdi:* «Vergilər Nazirliyinin bizim üçün təşkil etdiyi bayram şənliklərini səbrsizliklə gözləyirik»...

**F. İKRAMQIZI**

---

Bu ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ticarət əməliyyatlarının ümumi həcmi 3 milyard 661 milyon dollar olub: idxal əməliyyatları 1 milyard 451 milyon dollar, ixrac əməliyyatları isə 2 milyard 210 milyon dollar təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Ramin Hüseyn ixracda bu üstünlüyün əldə olunmasının səbəbini həyata keçirilən iqtisadi islahatlarla əlaqələndirir: «2018-ci ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixracatda ciddi artım müşahidə olunub. İki ay ərzində bu sahə üzrə ixracın artımı ötən ilin dekabr ayı ilə müqayisədə 3,7% təşkil edib. Kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə-tərəvəz ixracatında 50%, pambıq ipliyinin ixracında artım 43% qeydə alınıb. Kimya sənayesi məhsullarının ixracında bu ilin ilk iki ayı ərzində 7%-lik artıma nail olunub və qarşıdakı aylarda bu tendensiyanın davam edəcəyi proqnozlaşdırılır».

R.Hüseynin sözlərinə görə, Azərbaycan məhsullarının həcmi artdıqca onun satış bazarları da sürətlə genişlənir: «Ənənəvi bazarlar sayılan Rusiya və Türkiyə ilə yanaşı, Çin, Mərkəzi Asiya, eləcə də Avropa ölkələrinə ixrac edilən məhsulların həcmi və çeşidi genişlənməkdədir. Bu sahədə xaricdə yaradılmış ticarət evlərinin, ixrac missiyalarının, eləcə də xarici ölkələrin Azərbaycana alıcı missiyalarının tətbiqi böyük rol oynayır. Azərbaycanda yaradılmış aqroparklar kənd təsərrüfatı məhsullarının, Sumqayıtdakı sənaye parkları isə kimya məhsullarının ixracının daha da artmasına səbəb olacaq. Bu isə ölkəmizə xarici valyuta axınını təmin edəcək. Azərbaycanda ilin iki ayı ərzində ixrac idxalı 50% üstələyib, nəticədə ticarət əməliyyatlarında müsbət saldo əldə olunub. Növbəti aylarda məhsul ixracının artması, əsasən, yeni istehsal müəssisələrinin yaradılması hesabına mümkün olacaq».

Qeyd edək ki, İİTKM-in «İxrac icmalı»nın bu ilin fevral ayı üçün təqdim olunan sayında göstərilir ki, yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 123 milyon ABŞ dolları təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ilin ilk ayı ərzində qeyri-neft məhsulları ən çox Rusiya Federasiyasına ixrac edilib (36,8 milyon ABŞ dolları). Yanvar ayı ərzində Türkiyəyə 23 milyon, İsveçrəyə 17,9 milyon, Gürcüstana 11,3 milyon və Çinə 4,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov bildirib ki, ixracın dəstəklənməsi məqsədilə qarşıdakı aylarda Avropa ölkələrinə ixrac missiyaları təşkil ediləcək. Onun sözlərinə görə, hazırda Qərbi və Şərqi Avropa ölkələrinin bazarları ilə bağlı araşdırma aparılır: «Araşdırma başa çatdıqdan sonra konkret prioritet sahələr seçiləcək. Artıq bəzi meyvə-tərəvəzlərin Almaniyaya və digər Avropa ölkələrinə ixracı ilə bağlı ilkin razılaşmalar və sifarişlər əldə edilib». Qeyd olunub ki, Azərbaycan şərablarının Çinə ixracı artmaqdadır: «Bu ölkəyə həm şərab ixracının həcmi, həm də ixracda iştirak edən şirkətlərin sayı artıb. Artıq 8 Azərbaycan istehsalçısı öz məhsullarını Çinə ixrac edir».

**FƏXRİYYƏ**

---

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu ilin yanvar-fevral aylarında Bakı şəhərində 110/35/10 kilovoltluq «Yasamal-1» və «Qobu», 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Mingəçevir Sənaye Parkında «Mingəçevir Tekstil» MMC-nin iplik istehsalı üzrə 2 müəssisəsi istifadəyə verilib.

Avropa İttifaqının dəstəyi ilə Yeni Bakı Limanının əməliyyat imkanlarının genişləndirilməsinə hesablanmış layihəyə start verilib.

«Südthüringen Kurier» qəzetinin mart ayı üzrə sayında Azərbaycana dair geniş məqalədə ölkəmizin çoxəsrlik tarixə, zəngin mədəniyyətə, ənənəvi qonaqpərvərliyə və böyük turizm potensialına malik olduğu vurğulanıb.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi genetik modifikasiya olunmuş orqanizmlərlə bağlı araşdırmalara başlayıb.

---

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

---

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Almaniya Azərbaycana əhəmiyyətli partnyorluq imkanları təklif edir

Aprelin 10-da Alman-Azərbaycan Xarici Ticarət Palatası «Tibbi Turizm» üzrə Alman-Azərbaycan biznes-forumu keçirəcək. Biznes-forum Berlin şəhərinin kardiologiya, neyrocərrahiyyə və onkologiya üzrə ixtisaslaşan klinikaların nümayəndə heyətinin Azərbaycana səfəri ilə əlaqədar olaraq «Berlin biznes və texnologiya tərəfdaşı» GmbH ilə əməkdaşlıq çərçivəsində təşkil edilir.

Tədbirin əsas məqsədi yeni işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyənləşdirmək və alman klinikaları, tibb müəssisələri və onların azərbaycanlı tərəfdaşlarına səhiyyədə rəqəmsal texnologiyaların tətbiqi və eləcə də tibbi turizm üzrə layihə və təkliflərini təqdim etməkdir. Forum zamanı iştirakçılar yeni biznes imkanları əldə edə, yeni layihələr tanıya və Alman-Azərbaycan sıx əməkdaşlığının bir hissəsi olaraq şəbəkələrini genişləndirə bilərlər.

Qeyd edək ki, Azərbaycanda səhiyyə müəssisələrinin yenidən qurulması, həyata keçirilən zəruri proqramlar, layihələr və qabaqcıl texnologiyaların tətbiqi, yeni kadr potensialının hazırlanması Azərbaycan hökumətinin prioritet istiqamətlərindəndir. Bu layihələrdə beynəlxalq əməkdaşlıq önəmli rol oynayır. Xüsusən, səhiyyə sahəsində dünya üzrə rəqabətədavamlı texnologiya və innovasiyaları ilə aparıcı mövqeyə malik olan Almaniya, bu baxımdan, Azərbaycana əhəmiyyətli partnyorluq imkanları təklif edir.

# Vergilər Nazirliyinin nümayəndəsi OECD-nin iclasında təqdimatla çıxış edib

Bu günlərdə Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»unun avtomatik məlumat mübadiləsi üzrə İşçi Qrupunun 15-ci iclası keçirilib. İclasda «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında çoxtərəfli razılaşma»nın tələblərinə uyğun olaraq avtomatik məlumat mübadiləsinin aparılması və «2018-ci il üzrə məlumatların toplanması və hesabat verilməsi siyahıları» üzrə yenilənmiş sənədlər müzakirə olunub. Tədbirdə çoxtərəfli razılaşmadan irəli gələn öhdəliklərin, məlumatların konfidensiallığı və qanunvericilik üzrə qiymətləndirmə prosesi ilə əlaqədar tərəfdaş yurisdiksiyalarda mövcud vəziyyətə dair müzakirələr aparılıb.

İclasda iştirak edən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktor müavini Vüsal Şıxəliyev «Maliyyə hesabları üzrə məlumatların müqayisəsi və informasiya resursları» mövzusunda təqdimatla çıxış edib, bu sahədə Vergilər Nazirliyi tərəfindən görülən işlər və həyata keçirilən layihələr barədə məlumat verib.

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**,
ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sahibkarlar üçün yeni imkan:
## Lisenziyaların alınması sadələşdirilib

Bu günlərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziyaların və icazələrin elektron qaydada verilməsini təmin edən «Lisenziyalar və icazələr» portalının istifadəyə verilməsi ilə bağlı təqdimat mərasimi keçirilib. Tədbirdə lisenziya və icazə verən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, informasiya sistemləri vasitəsilə portala inteqrasiya olunan təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin stimullaşdırılması, lisenziyalar və icazələr sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan kompleks islahatlar barədə məlumat verib. Qeyd edilib ki, bu islahatların tərkib hissəsi olaraq, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilib, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilib, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib və prosedurlar sadələşdirilib.

Qeyd olunub ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2 noyabr 2015-ci il tarixindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziya tələb edilən fəaliyyət növləri üzrə lisenziyaların «ASAN xidmət» mərkəzləri vasitəsilə verilməsinə başlanılıb və indiyədək 5311 lisenziya verilib ki, bunun da 2719-u yeni verilən, 2592-si isə müddətsiz lisenziya ilə əvəz olunan və yenidən rəsmiləşdirilən lisenziyalardır.

Nazir müavini bildirib ki, İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə «Lisenziyalar və icazələr» portalı hazırlanıb. Ötən ilin dekabrında ilkin təqdimatı keçirilən portal sahibkarların rəy və təklifləri nəzərə alınmaqla təkmilləşdirilib və istifadəyə verilib. Artıq www.lisenziya.gov.az ünvanına müraciət etməklə İqtisadiyyat Nazirliyi tərəfindən lisenziyaların elektron qaydada verilməsi üçün portal vasitəsilə müraciətlərin qəbulu, aidiyyəti qurumdan rəyin alınması və nəticələrin rəsmiləşdirilməsi mümkündür. Portaldan istifadə etmək üçün dövlət qurumları və sahibkarlar elektron imzaya malik olmalıdırlar.

www.lisenziya.gov.az
nvan na m raci t etm kl
qtisadiyyat Nazirliyi
t r find n lisenziyalar n
elektron qaydada verilm si
n portal vasit sil
m raci tl rin q bulu,
aidiyy ti qurumdan r yin
al nmas v n tic l rin
r smil dirilm si
m mk nd r

Portalda lisenziya və icazə sistemini tənzimləyən hüquqi aktlar, sahibkarlıq sahəsinə aid hüquqi aktların layihələri, «Sorğu və təkliflər», «Xəbərlər» bölmələri yaradılıb ki, istifadəçilər həmin bölmələrdə yerləşdirilən məlumatlarla tanış ola, portal vasitəsilə lisenziya və icazə verən orqanlara sorğu və təkliflər göndərə, portalda yerləşdirilən hüquqi aktların layihələrinə dair təkliflər verə bilərlər. İstifadəçilər «Haqqımızda» bölməsinə daxil olmaqla yazılı və videotəlimatlar vasitəsilə portaldan istifadə qaydaları ilə tanış ola bilərlər. Bildirilib ki, portalın elektron xidmət platforması kimi istifadəyə verilməsi lisenziya və icazələrin alınması üçün sahibkarlara daha rahat imkanların yaradılmasını təmin edəcəkdir.

## 2018-ci ilin mart ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin fevral ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Xüsusi notariuslar** 2018-ci ilin fevral ayı üzrə hesabladığı gəlir vergisini **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödəməlidirlər (cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).
- **Daşınmaz əmlakı** təqdim edin şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi **cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin fevral ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Təqdim edilməli bəyannamələrin və vergilərin ödənilməsinin son müddəti Novruz bayramı ilə əlaqədar cari ilin mart ayının 20-dən 27-nə keçirilmişdir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Avropa İttifaqı ABŞ-ın yeni rüsumlarının əleyhinədir

Avropa İttifaqının (Aİ) ticarət üzrə məsul təmsilçisi xanım Sesiliya Malmstrem bəyan etmişdir ki, ABŞ-ın alüminium və polad idxalı üçün tətbiq etdiyi yeni rüsumlar İttifaqa üzv ölkələrə şamil olunmamalıdır. Əgər belə olarsa, Avropa bloku da əks tədbirlərin görülməsi üçün Beynəlxalq Ticarət Təşkilatına müraciət edə bilər. Aİ-də ümid edirlər ki, Meksika ilə Kanadaya münasibətdə olduğu kimi, Avropa ölkələri də yeni rüsumu ödəməkdən azad edilə bilər. Sesiliya Malmstermin sözlərinə görə, Aİ ABŞ-ın polad istehsalı ilə bağlı narahatlığını anlayışla qarşılayır, lakin rüsum tətbiq etməklə bu problemin həll olunacağına inanmır.

Aİ ölkələri üzrə alüminium və polad istehsalçılarının mövqeyi belədir ki, ABŞ-a ixracın əldən getməsi sayəsində metallurgiya sektorunda və bu sektoru müşayiət edən sahələrdə on minlərlə iş yeri itirilə bilər. Biznes nümayəndələri isə dərhal əks tədbirlərin görülməsini tələb edirlər. Aİ-də burbon və araxis yağı da daxil olmaqla bir sıra ABŞ məhsullarının Avropaya idxal edilməsi üçün əks addımlar atılacağı müzakirə mövzusudur.

Qeyd edək ki, ABŞ-ın dövlət administrasiyasının bəyanatında bildirilmişdir ki, iki ölkə - Meksika və Kanada bir neçə metalın Amerikaya ixrac edilməsi üçün artırılmış rüsumları ödəməkdən azad oluna bilər. O da əlavə edilmişdir ki, ABŞ-ın mövqeyinin bu cür yumşalması daimi səciyyə daşıya bilməz: müəyyən vaxt çərçivəsini əhatə edəcək. Çin isə ticarət sahəsində istənilən qarşıdurma zamanı ABŞ-a «layiqli və zəruri cavab veriləcəyini» bildirmişdir. Hökumətin bəyanatında qeyd olunmuşdur ki, Çin və ABŞ rəqib deyil, tərəfdaş olmağa səy göstərməlidir.

# Çin idxalı artırmaqla xarici investisiya axınını artıracaq

Çin Xalq Respublikasının Baş naziri Li Kesyan bu yaxınlarda açıqladığı hesabatda qeyd etmişdir ki, hökumət tarifləri və vergi dərəcələrini aşağı salmaqla malların idxalını əsaslı şəkildə genişləndirməyi və ölkə iqtisadiyyatına xarici investisiya axınlarını artırmağı planlaşdırır.

Hesabatda bildirilmişdir ki, hüquqi və fiziki şəxslərdən tutulan vergilərin həcminin azaldılması 800 milyard yuandan (12,6 milyard ABŞ dolları) artıq təşkil edəcək.

Çində avtomobillərin və bir sıra digər istehlak mallarının idxalından tutulan vergilər də azaldılacaq.

Ölkəyə daha çox xarici investisiya cəlb etmək məqsədilə xarici investorların Çin ərazisində yenidən investisiya kimi qoyulan gəlirləri vergilərdən azad olunacaq.

# Putin biznesi əsassız yoxlamalardan xilas edəcəyinə söz verib

Rusiya Federasiyasının dövlət başçısının vədinə görə, ən yaxın zamanlarda ölkədəki sahibkarların nəzarətedici orqanlar tərəfindən aparılan izafi yoxlamalardan xilas edilməsi üçün təsirli tədbirlər görüləcək. «Biz hazırda bütöv bir təkliflər paketi hazırlayırıq və inandırıram ki, ən yaxın vaxtlarda bu təkliflərin hamısının həyata keçirilməsinə nail ola biləcəyik», - V.Putin qadın sahibkarları qəbul edərkən deyib. Prezident xatırladıb ki, martın əvvəlində Federal Məclisə göndərdiyi təklifdə bu mövzunu xüsusi vurğulayaraq göstəriş vermişdir ki, yoxlamalar məsafədən aparılmalıdır, bir neçə istiqamətdə isə konkret nəzarətçilərin iştirakı olmadan həyata keçirilməlidir.

Qeyd edək ki, Prezident Putin bu bəyanatı görüş iştirakçlarından birinin sualına cavab olaraq vermişdir. Qadın sahibkar dövlət başçısına müraciətində bildirmişdi ki, planlı yoxlamalar ləğv edildikdən sonra şirkətlər əsassız şəkildə aparılan plandankənar yoxlamalardan əziyyət çəkməyə başlamışlar, bu cür plandankənar yoxlamalar zorakılıq səciyyəsi daşıyır, ədalətsiz rəqabətə və hüquq mühafizəçiləri tərəfindən biznesə təzyiq göstərilməsinə yol açır.

# Böyük Britaniya fırıldaqçılıqda ittiham olunur

Avropa Komissiyası Böyük Britaniyadan Avropa İttifaqının (Aİ) büdcəsinə 2,7 milyard avro (5,67 milyard manat) vəsait ödəməyi tələb etmişdir. Bu tələb Çindən tekstil məmulatları və ayaqqabı idxalı zamanı gömrük rüsumları ilə bağlı yol verilmiş fırıldaqlarla əlaqələndirilir. «2007-ci ildə Çindən tekstil məhsulları və ayaqqabı idxalı ilə bağlı mövcud olan risklər haqqında xəbərdarlıq edilməsinə baxmayaraq, Böyük Britaniya hökuməti fırıldaqçılığın qarşısını almaq üçün tədbir görməmişdir», - Avropa Komissiyasının icraçı direktoru bildirmişdir.

Aİ-nin Fırıldaqçılığa Qarşı Mübarizə İdarəsinin (OLAF) araşdırmasına əsasən, 2013-2016-cı illəri əhatə edən dövr ərzində Böyük Britaniyaya mallar ixrac etmiş Çin şirkətləri ödənilməli olan vergi məbləğlərini minimuma endirmişlər ki, bu da Aİ büdcəsindən 2 milyard avro (4,2 milyard manat) vəsaitin yayındırılmasına səbəb olmuşdur. Bununla belə, Avropa Komissiyasının apardığı digər yoxlamalar fırıldaqçılığın miqyaslarının daha əhatəli olduğunu aşkara çıxarmışdır. Məlum olmuşdur ki, 2011-ci ildən 2017-ci ilə qədər Böyük Britaniyada törədilmiş fırıldaqlar nəticəsində büdcədən yayındırılmış vəsaitin ümumi məbləği 2,7 milyard avroya çatır.

Britaniya hökumətinin rəsmi nümayəndəsi isə Avropa Komissiyasının irəli sürdüyü tələbi tanımadıqlarını bəyan etmişdir.



# OECD Finlandiyaya ƏDV-ni genişləndirməyi tövsiyə edib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyəsində əməkhaqqından tutulan yüksək verginin azaldılması və vergi yükünün dolayı vergilərə, eləcə də ekoloji yığımlara yönəldilməsi vurğulanmışdır. Bildirilmişdir ki, vergi yükünün ağır olması əmək bazarının inkişafında əngələ çevrilir ki, bu da iqtisadiyyatda tarazlığı pozur: onsuz da digər ölkələrlə müqayisədə Finlandiyada məşğulluğun səviyyəsi aşağıdır.

Təşkilatın ekspertləri hesab edirlər ki, əməkhaqqından tutulan verginin azaldılmasını və vergi yükünün başqa formalara keçirilməsini əhatə edən vergi islahatları gəlir bazasının artımına şərait yarada bilər.

OECD təsdiq etmişdir ki, Finlandiya vergi dərəcələrinin aşağı salınmasının azaldılması hesabına ƏDV bazasını yüksəltmək imkanına malikdir. Hazırda Finlandiyada ƏDV-nin standart dərəcəsi 24 faizdir və bu, OECD üzrə ən yüksək göstəricilərdəndir. Lakin bir çox mal və xidmətlərə görə ƏDV-nin xeyli aşağı dərəcələri tətbiq olunur ki, bu da nəticədə Finlandiyanın ƏDV sisteminin OECD-yə üzv olan digər ölkələrlə müqayisədə daha səmərəsiz olmasına gətirib çıxarır.

# Latviyada saxta şirkətlərin fəaliyyəti qadağan ediləcək

Latviyanın Baş naziri, Maliyyə Sektorunun İnkişafı Şurasının sədri Maris Kuçiniskis ölkədə saxta şirkətlərin fəaliyyətinə qadağa qoyan qərarı dəstəklədiyini bəyan etmişdir. Onun açıqlamasına əsasən, bu məsələyə hökumət aprelin 3-də, Latviya Seymi isə aprelin 8-də baxacaq.

Gözlənildiyinə görə, qarşıdakı altı ay ərzində banklar mənşəyi məlum olmayan şirkətlərlə işgüzar münasibətlərini tam dayandırmalıdırlar. Bu cür şirkətlərdən müxtəlif qanunsuz maliyyə əməliyyatlarında, eləcə də çirkli pulların yuyulmasında istifadə edilir. Onlar offşor hesablardan və digər fırıldaq mexanizmlərindən də yararlanırlar.

Maliyyə naziri xanım Dana Reyzniyetse-Ozola qeyd etmişdir ki, nəzərdə tutulan qadağanın əsas məqsədi ölkənin maliyyə sektorunda sabitliyin, etibarlılığın və uzunmüddətliliyin təmin edilməsidir. Maliyyə sektoru risklər yaratmaq əvəzinə, iqtisadiyyatın inkişafına kömək etməlidir. Onun sözlərinə görə, bu sahədə tədbirlər planı hazırlanarkən Maliyyə Nazirliyindən, Banklar Assosiasiyasından və digər aidiyyəti qurumlardan alınmış rəy və təkliflər nəzərdən keçirilmişdir. Tədbirlər planında ölkənin bank sisteminin nizama salınmasına xüsusi diqqət yetirilmişdir.

Maliyyə və Kapital Bazarı Komissiyasının sədri Peters Putninşin açıqlamasında isə qeyd edilmişdir ki, banklara öz gələcək fəaliyyətlərinin strateji planlarını hazırlamaq üçün on gün vaxt verilmişdir. Bu müddət ərzində banklar saxta şirkətlərə xidmət göstərməkdən imtina etməklə üzləşəcəkləri ziyanın əvəzini nə ilə dolduracaqları ilə bağlı da məlumat verməlidirlər. Komissiyanın məlumatına əsasən, Latviya banklarının müştəriləri arasında iyirmi mindən artıq saxta şirkət vardır ki, onların da üçdə ikisi ölkə ərazisində qeydiyyata alınmışdır. Həmin şirkətlərin Latviyanın bank təşkilatlarının kredit dövriyyəsindəki xüsusi çəkisi 36,57 faiz təşkil edir. Xarici müştərilərin isə 44,5 faizi bu bankların payına düşür.

Hökumət bankların gələcək fəaliyyəti ilə bağlı öz mövqeyini açıqlayandan sonra Latviyanın nüfuzlu «Rietmumu» bankı offşor qurumların açdıqları hesablarla əlaqələrin dayandırılması barədə məlumat yaymışdır. Bank öz mövqeyini elə əsaslandırmışdır ki, «yeknəsək risk yaradan» müştərilərlə əməkdaşlıqdan imtina etmək qərara alınmışdır.

Mətbuatın yazdığına görə, artıq offşor şirkətlərin hesabları bağlanmışdır. Bu hesablara giriş əldə etmək üçün offşor şirkətin benefisiarlarını açıqlamaq və onların pul vəsaitlərinin haradan gəldiyi barədə məlumat vermək lazımdır. Şərtlərdən biri də işgüzar tərəfdaşlar, həmçinin onlarla tanışlığın şərtləri barədə məlumatın verilməsidir. Ekspertlər hesab edirlər ki, bu addımın atılması sayəsində offşor yurisdiksiyaları mənasını itirərək lazımsız bir şeyə çevriləcək.




krossvord

**Yuxarıdan aşağı:** 1.Mozambikin paytaxtı; 2.Yardımlı rayonunda kənd; 3.Anadolu türkcəsində qızıl; 4.Zavod-fabrik tərəfindən istehsal olunan işləməyən, zay, yararsız cihaz və ya əşya; 5.Arasıkəsilməz və tənzimlənə bilən atom enerjisi almaq üçün qurğular sistemi; 6.Yayla çalınan dördsimli musiqi aləti; 7.Bərk süxur (daş); 13.İspaniyada şəhər; 15.Rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; 16.Rusiyada telekanal; 17.Tropik meyvə; 18.Linqvistikada deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlər; 20.Avropa, Asiya və Amerikanın şimalında çətin keçilən iynəyarpaqlı meşələr zonası; 21.Məqsəd, amal. **Soldan sağa:** 1.Rusiya imperator ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, sovet hərb xadimi; 8.Bağırsağın infeksion xəstəliyi; 9.ABŞ-da ştat; 10.Binanın daxilində üst örtüsü; 11.Mikele Plaçidonun «Sprut» serialında canlandırdığı obraz; 12.Roma siyasi və hərbi xadimi; 14.Üst paltar üçün naxışlı yun parça; 19.Müstəqil dövlət-şəhər və Roma katolik kilsəsinin mərkəzi; 21.RF-nin Komi Respublikasında göl; 22.Şərqşünas, tarixçi, Sovet İttifaqı Qəhrəmanı, əməkdar elm xadiminin adı; 23.Pyeslər, səyahətnamələr, romanlar və şeirlər də yazmasına baxmayaraq, daha çox nağıllarına görə tanınan danimarkalı ədib; 24.Ölkəmizdə fəaliyyət göstərən informasiya agentliklərindən biri; 25.Kosmik aparatlar üçün liman.



*Mikele Plaçidonun «Sprut» serialında canlandırdığı obraz*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sineva; 2.Antiqua; 3.Aqraf; 4.Truppa; 5.«Kirpi»; 6.Relikt; 9.Əniq; 13.Kətə; 15.Araxçın; 16.Qrafin; 17.Ştraus *(İohann)*; 18.Pleyer; 20.Rimma *(Məmmədova)*; 21.Atari. **Soldan sağa:** 1.Stalaktit; 5.Kür; 7.Notarius; 8.Ural; 10.Vaqif *(Ucatay)*; 11.Pontiak; 12.Banko; 14.Oqtay *(Kazımov)*; 19.Raritet; 21.Asaul; 22.Foma *(Akvinalı)*; 23.Bazarçay; 24.Nea; 25.Missioner.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev, anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu, redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

## Mariya Stadnik qələbə seriyasını sıralayır

Martın 25-də Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə 56-cı «Dan Kolov - Nikola Petrov» beynəlxalq turnirinə yekun vurulub. Turnirin sonuncu günündə yunan-Roma güləşçimiz Elman Muxtarov (67 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) mübarizəyə qoşulublar. Bütün rəqiblərini tam üstünlüklə məğlub edən Mariya Stadnik turnirin finalına yüksəlib. Həlledici görüşdə Rusiya təmsilçisinə qalib gələn güləşçimiz turnirin baş mükafatını qazanıb.

İlk görüşündə məğlub olsa da, rəqibin finala yüksəlməsi ilə bürünc medal şansı qazanan Elman Muxtarov bundan maksimum yararlanıb. Əvvəlcə Yaponiya, ardınca isə Türkiyə idmançısına qalib gələn güləşçimiz turnirin bürünc medalını qazanıb. Beləliklə, məşqçi Nurəddin Rəcəbovun rəhbərliyi altında 2 güləşçi ilə Bolqarıstana yollanan yunan-Roma yığmamız turniri 1 qızıl və 1 bürünc medalla başa vurub. Eyni sayda güləşçi ilə təmsil olunduğumuz qadın güləşi yarışlarında da yığmamız 1 qızıl və 1 bürünc medala sahib olub.

Qeyd edək ki, turnirin ilk günündə yunan-Roma güləşçilərimizdən Rəsul Çunayev (72 kq) qızıl, qadın güləşçilərimizdən Elis Manolova (65 kq) bürünc medal qazanıblar.



## Azərbaycan velosipedçisi Türkiyədə üçüncü olub

**Türkiyənin Alanya bölgəsində Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı «Tour of Cartier» yarışına yekun vurulub. Velotur ölkəmizin «Synergy Baku» komandası üçün uğurlu nəticə ilə yadda qalıb.**




Azərbaycan Velosiped İdmanı Federasiyası xəbər verir ki, dörd mərhələdən ibarət «Cartier» turnunda Samir Cəbrayılov, Telman Vəliyev, Kərim Şirəliyev, Ənvər Asanov, Aleksandr Polivoda, Elgün Əlizadə və Kənan Qəhrəmanlı ilə təmsil olunan «Synergy Baku»nun heyətində ən yüksək nəticəyə Aleksandr Polivoda imza atıb. O, 4 mərhələnin yekununa əsasən qalibdən 16 saniyə geri qalmaqla ümumi təsnifatda 3-cü yeri tutub. Bu nəticə velosipedçimizə 25 reytinq xalı da qazandırıb. Sprinterlərin mübarizəsində isə təmsilçimiz 5-ci nəticə göstərib.

## Gimnastlarımız uğurlu çıxış ediblər

Bədii gimnastika üzrə qrup hərəkətləri komandamız Fransanın Tiye şəhərində keçirilən ənənəvi Qran-Pri yarışlarında çoxnövçülük proqramında bürünc medal qazanıb. 16 ölkənin iştirak etdiyi turnirdə Aliyə Paşayeva, Siyana Vasileva, Diana Doman, Ayşən Bayramova, Zeynəb Hümmətova və Ayna Cəfərovadan ibarət qrupumuzun ilk icra etdiyi 3 top, 2 iplə kompozisiya onlara 15,050 xal qazandırıb.

Növbəti çıxışlarını daha uğurla yerinə yetirən bədii gimnastlarımız 5 halqa ilə kompozisiyaya görə isə hakimlərdən 17,050 xal almağa müvəffəq olublar. Bununla da iki hərəkətin yekununda hesabına 32,100 xal yazdıran komandamız yalnız İtaliya və Ukrayna təmsilçilərindən geri qalaraq, fəxri kürsünün üçüncü pilləsinə yüksəliblər.

## Beynəlxalq turnirdə yeddi medal...

**Litvanın paytaxtı Vilnüs şəhərində gənc boksçular arasında Dan Poznyakın xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnir başa çatıb. 13-cü dəfə keçirilən yarışda Azərbaycan millisi 7 medal qazanıb.**



Turnirdə 60 kq çəki dərəcəsində çıxış edən Nurlan Səfərov bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yalnız finalda məğlub olan Nəbi İsgəndərov (56 kq) və Zaur Musayev (81 kq) isə gümüş medalla kifayətləndiyi halda, Maqsud Xasmətov (49 kq), Həsən İbrahimov (52 kq), Nicat Həsənov (69 kq) və Məhəmməd Yusifov (75 kq) üçüncü yeri tutublar.

Bununla da yığmamız komanda hesabında yalnız Rusiya boksçularından geri qalaraq ikinci nəticə göstəriblər.

## Formula›1 Bak ya do ru «s r t y

Formula-1 üzrə dünya çempionatının yeni mövsümünə start verilib. Martın 25-də keçirilən birinci yarışda - Avstraliya Qran-Prisində «Ferrari»nin pilotu Sebastyan Fettel qalib gəlib. O, yarışı 1 saat 29 dəqiqə 33,283 saniyəlik nəticə ilə 25 xal toplayaraq başa vurub. Liderdən 5,036 saniyə geri qalan Lyuis Hamilton («Mercedes») yarışı 18 xalla ikinci pillədə yekunlaşdırıb. İlk üçlüyü liderdən 6,309 saniyə sonra finişə çatan Kimi Raykonnen («Ferrari», 15 xal) tamamlayıb. S.Fettel karyerasında 48-ci, Melbrunda üçüncü və ardıcıl ikinci qələbəsini qazanıb. Konstruktorlar kubokunda isə «Ferrari» 40 xalla birinci, «Mercedes» 22 xalla ikinci, «Aston Martin Red Bull Racing» isə 20 xalla üçüncü pillədə qərarlaşıb.

Xatırladaq ki, dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-Prisi aprelin 27-29-da Bakıda təşkil olunacaq.

mozaika

cəmiyyət

## Stiven Hokinq vəfat etdi

**Novruz bayramı ərəfəsində 76 yaşında dünyasını dəyişən ingilis fizik, astronom, nəzəriyyəçi, yazar Stiven Hokinq 1942-ci ildə Oksfordda anadan olub. 1962-ci ildə Oksford Universitetini bitirib və nəzəri fizika ilə məşğul olmağa başlayıb. 1965-ci ildə Ceyn Vayldla evlənib, bir qız və iki oğlan atası olub. 1974-cü ildə Hokinq London Kral Cəmiyyətinin üzvü seçilib. 1985-ci ildə boğazından keçirdiyi əməliyyatdan sonra danışıq qabiliyyətini itirib.**



O vaxtdan ömrünün sonuna qədər ətrafdakı insanlar ilə dostlarının ona bağışladığı əlil arabasına quraşdırılmış nitq sintezatoru vasitəsi ilə ünsiyyət saxlayırdı. O, bu sintezatora əmrləri öz hərəkət qabiliyyətini saxlamış sağ alinin şəhadət barmağı vasitəsilə verirdi. Hərəkət qabiliyyətini itirmiş S.Hokinq Britaniya kosmoloji tədqiqatlarının başlıca nüvəsini formalaşdıran COSMOS layihəsi üzərində çalışırdı. Onun əsas tədqiqat sahəsi kosmologiya və kvant qravitasiyası ilə əlaqədar idi.

Yer kürəsinin və kainatın yaranması, «Böyük partlayış» anından bu günə qədər keçdiyi inkişaf yolu ilə bağlı müxtəlif model məhz Hokinqə məxsusdur. O, Enşteyndən sonrakı dövrdə cazibə anlayışlarına ən çox töhfə etmiş alim kimi tanınır. Stiven Hokinq yadplanetlilərin mövcud olduğunu söyləyirdi. Onun fikrincə, kainatda milyonlarla qalaktika və qalaktikada milyardlarla ulduz var. Bu qədər səma cisimləri arasında yalnız Yerdə həyatın mövcud olmasının ehtimalı çox azdır. Lakin o, yadplanetlilərin Yerə gəlməsinin bəşəriyyət üçün yaxşı nəticə verməyəcəyinə də əmin idi.

texnologiya

## Silahla təchiz edilən dron yaradılacaq

Sinqapurun «ST Kinetics» şirkəti müxtəlif növ atıcı silahlarla təchiz olunan hərbi pilotsuz uçan aparatlar yaratmaq niyyətindədir. Şirkət ilk dron prototiplərini növbəti ilin sonunadək təqdim etməyi planlaşdırır. Onlardan birincisi «Stinger» adlı dördşüalı oktokopter olacaq. Dron teplovizor, yüksək təsvir ölçülü videokamera və 5,56 millimetr kalibrli 100 patronlu «ST Kinetics Ultimax 100 Mk.8» pulemyotu ilə təchiz ediləcək. «Stinger» pilotsuz uçan aparatının nəzərdə tutulan uçuş müddəti 30 dəqiqə, çəkisi 60 kiloqramdır.

Drondan atış üçün səmərəli istifadə üçün mütəxəssislər tərəfindən pulemyotun faydalı iş əmsalının kompensasiyası məqsədilə xüsusi asma sisteminin yaradılması nəzərdə tutulur. Bir müddət əvvəl şirkət pulemyota malik dron konsepsiyasının həyata keçirilməsinin mümkünlüyünü təsdiqləyən bir sıra sınaqlar keçirib.

ekologiya

## Kral pinqvinləri təhlükədədir

Sinqapurun «ST Kinetics» şirkəti müxtəlif növ atıcı silahlarla təchiz olunan hərbi pilotsuz uçan aparatlar yaratmaq niyyətindədir. Şirkət ilk dron prototiplərini növbəti ilin sonunadək təqdim etməyi planlaşdırır. Onlardan birincisi «Stinger» adlı dördşüalı oktokopter olacaq. Dron teplovizor, yüksək təsvir ölçülü videokamera və 5,56 millimetr kalibrli 100 patronlu «ST Kinetics Ultimax 100 Mk.8» pulemyotu ilə təchiz ediləcək. «Stinger» pilotsuz uçan aparatının nəzərdə tutulan uçuş müddəti 30 dəqiqə, çəkisi 60 kiloqramdır.

Drondan atış üçün səmərəli istifadə üçün mütəxəssislər tərəfindən pulemyotun faydalı iş əmsalının kompensasiyası məqsədilə xüsusi asma sisteminin yaradılması nəzərdə tutulur. Bir müddət əvvəl şirkət pulemyota malik dron konsepsiyasının həyata keçirilməsinin mümkünlüyünü təsdiqləyən bir sıra sınaqlar keçirib.



mədəniyyət

## «Arşın mal alan» Parisdə



Parisdə xarici ölkələrin filmlər həftəsi çərçivəsində «Arşın mal alan» filminin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa edilmiş rəngli versiyası «Le Balzac» kinoteatrında nümayiş olunub. Film Azərbaycanın Fransadakı səfirliyi, Heydər Əliyev Fondu və Parisdə xarici ölkələrin mədəniyyət mərkəzlərinin forumunun (FICEP) birgə təşkilatçılığı ilə göstərilib.

Tədbirdə bu ölkədəki səfirimiz Rəhman Mustafayev dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin operettası əsasında 1945-ci ildə lentə alınmış «Arşın mal alan» filminin dünyanın müxtəlif dillərə tərcümə edilərək bir çox ölkələrdə uğurla nümayiş olunduğunu diqqətə çatdırıb. Kino tarixçisi, kinoglaz.fr portalının sədri Fransuaz Navailh Azərbaycan kinosunun tarixi haqqında ətraflı məlumat verib.

Filmin nümayişindən sonra Ceyhun Hacıbəylinin Fransada yaşamış oğlu Timurçinin həyat yoldaşı Paskal Hacıbəyli Buşe film barədə təəssüratlarını bölüşüb: «Filmə dəfələrlə baxmışam, bu dəfə kino zalında böyük ekranda yeni, rəngli versiyada tamaşa etdim. Filmin musiqisini çox sevirəm, dinləməkdən doymuram. Nizaminin rəhbərlik etdiyi orkestrin ifası möhtəşəmdir. «Arşın mal alan» operettası 1925-ci ildə Fransada nümayiş etdirilib. Həmin dövrün afişalarını, eləcə də qəzetlərdə və jurnallarda onunla bağlı çıxan yazıları, təqdimatları saxlayıram. Bir neçə dəfə Bakıda olmuşam, son illər onun daha da inkişaf etdiyini, çox dəyişdiyini, daha da gözəlləşdiyini eşitmişəm. Yeni Bakıya getmək, onu görmək istərdim».

Əslən azərbaycanlı olan fransız aktyor Robert Hossein də filmi yüksək qiymətləndirib: «Çox bəyəndim. Sanki nağıllar aləmində idim. Filmin quruluşu, rənglər, ifalar, səslər son dərəcə gözəl idi. Filmə ilk dəfə idi baxırdım və ondan böyük həzz aldım».

təbiət möcüzəsi

## Elektrikli balıqlar

Canlı varlıqların elektrik enerjisi buraxdıqları çox-çox əvvəllərdən məlumdur. Gərginliyi təmin edən ən güclü orqanlar əzələ və sinirlərdir. Bütün əzələ lifləri elektrik yükü daşıyır. Heyvanlar arasında elektrikə və işıqlı orqanlara malik olanları var və bu, onlara özünü müdafiə etməkdə, istiqamət tapmaqda və bəzi cinslərarası yaxınlaşmalarda yardım edir.

Dənizdə və şirin suda yaşayan yüzlərlə növ elektrikli balıqlar var. Onların əzələ və sinir toxumalarından yaranmış xüsusi orqanlarda elektrik cərəyanı istehsal olunur. Həmin elektrik cərəyanı əksər hallarda bir iynə batması qədər zəifdir. Bəzi balıq növləri isə sarsıdıcı gücə malik elektrik cərəyanı istehsal edir. Həmin proses, həqiqi mənada, elektrik boşalmasıdır, yaratdığı təsir isə gerçək bir elektrik vurmasıdır.

Torpil balığı və elektrikli ilan balığı həmin balıqların ən tanınmış növləridir. Həqiqi ilan balıqları ilə heç bir əlaqəsi olmayan və şirin su hövzələrində yaşayan elektrikli ilan balığının 2.5 metrə qədər uzunluğunun beşdən dördü, xüsusilə quyruq hissəsi elektrik orqanları ilə örtülüdür. İlan balığı bir dəfədə 500-600 volt cərəyan boşaldaraq böyük heyvanları iflic edə bilir.

Elektrikli balıqlarda başdan quyruğa qədər uzanan elektrik orqanları batareya hissələri kimi bir-birinə yapışaraq disk şəklində bölünmüş kiçik sütuncuqlardan meydana gəlir. Sinir sisteminin təsiri ilə həmin sütuncuqları təşkil edən yüzlərlə diskin alt səthi müsbət elektrik yükü, o biri səthi isə mənfi elektrik yükü ilə yüklənmiş olur. Beləliklə, disk yığımı tam bir «batareya» halına gəlir. Həmin canlı «batareya» beyindən gələn sinir impulslarından asılıdır. Balıq onu təhdid edənə elektrik ötürərək iflic vəziyyətinə salır.

Balıqların bədənində gedən elektrik boşalması davamlı deyil. Yığılan elektriki boşaldandan sonra yenidən elektrik toplanması üçün aradan bir müddət keçməlidir. Elektrikli balıqların vurmaları zamanı şiddətli ağrı, hətta süstləşmə ola bilər, bəzi hallarda isə öldürücü təsir göstərir.

### Müdriklər deyib ki...

*«Biliyin birinci düşməni nadanlıq deyil, bilmək illüziyasıdır».*

*Stiven Hokinq (1942-2018)*

